www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 avqust 2024-cü il Cümə № 135 (8508) Qiyməti 60 qəpik

Xəbər

## Sənədsiz 400 min ev üçün xüsusi akt hazırlanır

yazısı səh.12-də

Gündəm

### Brüssel sülh danışıqlarını kimin pozduğunu gizlədir



Şarl Mişelin məyusluğunu anlamaq olar, amma ad çəkməməklə...

yazısı səh.4-də

# PROTOKOL SIXLIĞI, YOXSA BAKIYA “BİR GÜN FƏRQLƏ” MESAJI

Rəsmi Tehranın xarici siyasətində islahatlar olacaqmı?; cənub qonşumuzun Azərbaycanla isti münasibətlərinə mane olan qüvvələr kimlərdir; **deputat:** “Son vaxtlar məhz Azərbaycanın təkidi ilə münasibətlərdə müəyyən istiləşmə gözə çarpsa da...“



yazısı səh.9-da

### Bakı masaya bu ərazilərin qaytarılması şərtini qoyur

yazısı səh.4-də

### ATƏT-in Müşahidə Missiyası Bakıda fəaliyyətə başladı

yazısı səh.6-da

### İşsiz qalan müəllimlərin taleyi yenidən gündəmdə

yazısı səh.7-də

### Talıbov türk biznesmenin nələrini əlindən alıb - məhkəmə

yazısı səh.7-də

### Ölkədə D kateqoriyalı sürücü qıtlığı - iki mühüm səbəb

yazısı səh.12-də

### Noyabrda şagirdlər 10 günlük tətilə buraxılacaq

yazısı səh.3-də

### Xaricdən gələn turistlər bölgələrə niyə getmirlər?

yazısı səh.14-də

### DTX və DSX birgə əməliyyat keçirdi

yazısı səh.3-də

### Haniyəyə sui-qəsd ətrafında müəmmalar artır

yazısı səh.8-də

### Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin yeni rəisi kim olacaq?

yazısı səh.3-də

## ABŞ ölkəmizə qarşı sanksiya ritorikasından əl çəkdi - pərdəarxası...

Rəsmi Vaşinqton diplomatik danışıqlardan kənara çıxacaq hər hansı “üsullardan” istifadə niyyətində deyil - siyasətçilər səbəbləri açıqladılar

yazısı səh.5-də



Zakir Həsənov

### Müdafiə nazirinin müavinlərinin sayı bu səbəbdən azaldıldı

yazısı səh.3-də



Səttar Möhbalıyev

### Azərbaycanın “kurortlar naziri”ni kim əvəz edəcək?

yazısı səh.10-da



Erkin Qədirli

### Vitse-spiker postuna üç namizəddən biri - Qədirli...

yazısı səh.6-da



## Prezident kino işçilərini təltif etdi

**Prezident İlham Əliyev Azərbaycan kino işçilərinin təltif edilməsi haqqında sərəncam imzalayıb.**

*Sərəncama əsasən, Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif ediliblər:*

**Cilqamlı Rəmziyə Əkrəmovna**
**Quliyeva Gülşən Rəsul qızı**
**Məmmədov Rövşən İsax oğlu**
**Nəcəfov Bayram Hidayət oğlu**
**Yunusov Ədalət Məmməd oğlu.**

*Eyni zamanda Azərbaycan kinematoqrafiyasının inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilib:*

**Qurbanova Firəngiz Ağa Dadaş qızı**
**Rüstəmov Akif Zabi oğlu.**

## Fərəc Quliyev seçkilərlə bağlı qərarını dəyişib?



**Milli Dirçəliş Hərəkatı Partiyasının (MDHP) sədri Fərəc Quliyevin sentyabrda keçiriləcək növbədənkənar parlament seçkilərində iştirak edəcəyi ilə bağlı yerli mətbuatda informasiyalar dərc olunub.**

Məlumata görə, MDHP sədri 45 saylı Sumqayıt dördüncü seçki dairəsindən namizədliyini irəli sürüb.

MDHP sədri Yenicag.az-a açıqlamasında yayılan xəbərləri təkzib edərək söyləyib ki, o, builki seçkilərdə iştirak etmək niyyətində deyil.

“Bu informasiya yerli mətbuatda yer alıb. Mən bir daha təsdiq edirəm ki, builki seçkilərə qatılmayacağam. Partiyamız 2024-cü il seçkilərinə qatılacaq, mən isə yox. Təəssüf ki, bu xəbər doğru deyil”, - deyə partiya sədri məsələyə aydınlıq gətirib.

Qeyd edək ki, F.Quliyev Azərbaycan SSR Ali Sovetinin XII çağırış deputatı, eləcə də Milli Məclisin IV və V çağırış deputatı olub.

## 481 nəfərin namizədliyi qeydə alınıb



**Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri ilə əlaqədar 1489 nəfərin deputatlığa namizədliyi irəli sürülüb.**

Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib.

Onlardan indiyə qədər 481 nəfərin deputatlığa namizədliyi qeydə alınıb.

Namizədliyi irəli sürülən 1489 nəfər arasında 25 siyasi partiyanın 459 nümayəndəsi var.

Qeyd edək ki, Azərbaycanda növbədənkənar parlament seçkiləri sentyabrın 1-də keçiriləcək. Mərkəzi Seçki Komissiyası (MSK) bəyan edib ki, namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin müvafiq dairə seçki komissiyalarına təqdim edilməsi səsvermə gününə ən çox 50, ən azı isə 30 günə qalmışa qədər 18:00-dək davam edəcək.

## Əliyar Ağayevə UEFA-dan təyinat



**FIFA referisi Əliyar Ağayev növbəti dəfə təyinat alıb.**

Bu barədə AFFA-nın rəsmi saytı məlumat yayıb.

Ə.Ağayev UEFA Avropa Liqasının III təsnifat mərhələsinin ilk oyunu çərçivəsində keçiriləcək “Panevejis” (Litva) - “Makkabi” (Təl-Əviv, İsrail) qarşılaşmasının baş hakimi olacaq.

Ona Zeynal Zeynalov və Akif Əmirəli kömək edəcək. Dördüncü hakim funksiyasını Kamal Umudlu yerinə yetirəcək. Elçin Məsiyev isə matça AVAR kimi təyinat alıb.

Qeyd edək ki, avqustun 8-də Panevejis şəhərində yerləşən “Aukştaytiya” stadionunda keçiriləcək görüş Bakı vaxtı ilə saat 21:00-da start götürəcək.

# Xalq artisti Abutalıbovu məhkəməyə verir



**Xalq artisti Şeyx Əbdül Mahmudbəyov Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbovu məhkəməyə verməyə hazırlaşır.**

Bununla bağlı Baku-post.az-a Əbdül Mahmudbəyov özü bildirib.

O, Hacıbala Abutalıbovun məhkəmə qətnamələrini icra etmədiyi üçün yenidən məhkəməyə müraciət etmək məcburiyyətində qaldığını vurğulayıb:

“Hacıbala Abutalıbov əvvəl vəzifədə idi, bundan sui-istifadə edib məhkəmə qətnamələrini icra etmirdi. İndi vəzifədə deyil, ya mənim mənzilimi versin, ya da həbs edilsin. Mətbuat üçün böyük bir müraciət hazırlayıram, ardınca isə vəkilim məhkəməyə müraciət edəcək”.

Qeyd edək ki, “Qış Parkı”nın tikintisi zamanı Əbdül Mahmudbəyovun evinə ziyan dəyib. Məhkəmənin qərarına əsasən, Hacıbala Abutalıbov evi təmir etdirməli və ya dəymiş ziyanı ödəməlidir.



## Baş nazirdən sosial ödənişlərlə bağlı qərar

**Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası təsdiqlənib.**

Bununla bağlı baş nazir Əli Əsədov qərar imzalayıb.

Sosial ödənişlər müraciət olunmadan proaktiv qaydada və ya onu almaq hüququ olan şəxslərin və yaxud onların qanuni nümayəndələrinin fond tərəfindən təyin edilir.

Bu qaydada nəzərdə tutulan sosial ödənişlərin təyin edilməsi, ödənilməsi və ödənişinin dayandırılması ilə bağlı sənədlərin (məlumatların) və onların surətinin elektron variantının Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra - nazirlik) səlahiyyətli vəzifəli şəxsinin gücləndirilmiş elektron imzası ilə təsdiq edildikdən sonra Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra - MEİS) “Sosial ödənişlər” altsisteminə daxil edilir və ya bildirişlər (bu qaydanın 5.8-ci bəndi nəzərə alınmaqla) həmin altsistem vasitəsilə göndərilir.

## Magistratura ixtisası üzrə boş qalan yerlərə qəbul

**2024/2025-ci tədris ili üçün Azərbaycan ali təhsil müəssisələrinin magistraturalarının boş qalan yerlərinə qəbul olmaq üçün 2024-cü il avqustun 1-dən 8-dək ixtisaslaşma seçimi elan edib. Bu barədə Dövlət İmtahan Mərkəzi (DİM) məlumat yayıb.**

Bildirilib ki, boş qalan plan yerlərinə qəbul 11 fevral və 28 aprel 2024-cü il tarixlərində keçirilmiş qəbul imtahanının birinci və ya ikinci cəhdində toplanılmış ballar əsasında müsabiqə yolu ilə aparılır (müsabiqə şərtləri). Boş qalmış ixtisaslaşmaların seçiminə magistraturaya qəbul imtahanının birinci və ya ikinci cəhdinin (bəzi proqramlar üzrə həmçinin qabiliyyət imtahanının) nəticələrinə əsasən, müəyyən edilmiş minimal tələbləri ödəyən və ixtisaslaşma seçimində iştirak etmək hüququ qazanan bakalavrlar buraxılırlar.

Keçirilmiş müsabiqə nəticəsində magistraturaya qəbul olmuş bakalavrın müəyyən olunmuş müddətdə təhsil müəssisəsində qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisaslaşma üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu bakalavrların ixtisaslaşmaların boş qalan yerlərinə keçirilən müsabiqədə iştirak etməsinə icazə verilmir.

Həmin bakalavrlar boş qalan yerlərə keçirilən müsabiqədə iştirak etmək üçün 8 avqust saat 23:59-dək DİM-in internet saytının müvafiq səhifəsinə daxil olaraq seçdikləri ixtisaslaşmaların kodlarını “Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi”ndə qeyd edib təsdiqləməlidirlər.

Bakalavrlar öz istəklərinə görə ixtisaslaşma seçimində və müsabiqədə imtahanın hər hansı bir cəhdində göstərdikləri nəticə (topladıqları bal) əsasında iştirak edə bilərlər. Hər iki imtahan nəticəsi müsabiqə şərtini ödəyən bakalavrlar müsabiqədə iştirak etmək istədikləri imtahan nəticəsini seçirlər.

İxtisaslaşma seçimi aparılan müddətdə bakalavr bitirdiyi ixtisasa müvafiq və istəyinə uyğun olan proqram(lar)ı və həmin proqram(lar)a aid olan 20-dək boş qalmış ixtisaslaşmanın kodunu seçərək “Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi”nə istədiyi ardıcıllıqla daxil edib təsdiqləyir. Seçilən bütün ixtisaslaşmalar seçim cədvəlinə əsasən bakalavrın bitirdiyi ixtisasa görə seçmək hüququ olan bir və ya daha çox qəbul proqramına aid ola bilər.



## Birinci Qarabağ müharibəsinin daha bir şəhidi dəfn edildi

**Birinci Qarabağ müharibəsində itkin düşən və 31 ildən sonra şəxsiyyəti müəyyənləşdirilən Daşkəsən rayonunun Qabaqtəpə kənd sakini şəhid hərbçi Məmmədov Surxay Rza oğlunun Gəncə Şəhidlər Xiyabanında dəfn mərasimi keçirilib. Dəfndə rayon ictimaiyyətinin nümayəndələri, rəhbər şəxslər şəhidin yaxınları, şəhid ailələri, müharibə veteranları və əlilləri, rayon sakinləri və KİV mənsubları iştirak ediblər.**

Əvvəlcə şəhidin cənazə namazı ailəsinin yaşadığı evdə qılınıb, ruhuna dualar oxunub. Sonra şəhidin nəşi Gəncə Şəhidlər Xiyabanında torpağa tapşırılıb, məzarı üstünə gül dəstələri düzülüb.

Dəfn zamanı hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub və yaylım atəşi açılıb.

Qeyd edək ki, şəhid Məmmədov Surxay Rza oğlu 7 dekabr 1974-cü ildə Daşkəsən rayonunun Qabaqtəpə kəndində anadan olub. O, könüllü olaraq Qarabağda gedən döyüşlərə qatılıb. 8 fevral 1993-cü ildə Ağdərə rayonunun Mehmana kəndi ərazisində erməni silahlı dəstələri ilə gedən döyüşlərdə hərbi xidməti borcunu yerinə yetirərkən müqəddəs şəhidlik zirvəsinə ucalıb. İtkin düşmüş hesab olunan Surxay Məmmədovun nəşinin qalıqları İsmayıllı Şəhidlər Xiyabanında dəfn olunan naməlum şəhid qəbirlərindən aşkar edilib.

## Növbədənkənar parlament seçkiləri üçün media mərkəzi açılacaq

**Milli Məclisə sentyabrın 1-nə təyin edilmiş növbədənkənar seçkilərlə əlaqədar media mərkəzinin açılışı istiqamətdə hazırlıq işləri davam edir.**

“Report” xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) avqustun 1-də keçirilən iclasında qurumun sədri Məzahir Pənahov deyib.

MSK sədrinin sözlərinə görə, media mərkəzində yerli və xarici ölkələrdən jurnalistlərin təmsilçiliyi nəzərdə tutulur.

YENİ MÜSAVAT
N 135 (8408) 2 avqust 2024

# Müdafiə Nazirliyində müavinlərin sayı bu səbəbdən azaldıldı

## İdarəetmə sisteminin təkmilləşməsi ordumuzun döyüş qabiliyyətinin artmasına da ciddi təkan verəcək



**Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun komandanı Müdafiə Nazirliyinin (MN) rəhbərliyi siyahısından çıxarılıb. Bu barədə "Report ttps://report.az/"a məlumatlı mənbədən bildirilib.**

Xatırladaq ki, bir müddət əvvəl Əlahiddə Ümumqoşun Ordunun sabiq komandanı general-polkovnik Kərəm Mustafayev vəzifəsindən azad edilib.

Qeyd edək ki, bundan əvvəl nazirliyin strukturuna əsasən Əlahiddə Ümumqoşun Ordunun komandanı müdafiə nazirinin müavini vəzifəsini tuturdu.

1991-ci il 7 sentyabr tarixində muxtar respublikanı yaranmış vəziyyətdən xilas etmək, ərazisini erməni basqınlarından qorumaq, əhalini talan və qırğınlardan qurtarmaq məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri olan Heydər Əliyevin təşəbbüsü ilə Dövlət Müdafiə Komitəsi yaradıldı. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu birliyindən biri olan 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqada formalaşdı. 705-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada uğurlu döyüş yolu keçərək 21 may 1995-ci ildə motoatıcı diviziyaya, 8 dekabr 1998-ci ildə isə Ordu Korpusu səviyyəsinə qədər yüksəldi.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb. Əlahiddə Ümumqoşun Ordu müxtəlif qoşun növünə aid birləşmə və hissələrdən ibarət olub Naxçıvan Muxtar Respublikası ərazisini, o cümlədən hava xətti ilə 275 km-dən (ərazi relyefinə uyğun olaraq 405 km) artıq sərhədi şərəflə müdafiə edir.

Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları 2018-ci ildə uğurlu Günnüt əməliyyatında və 2020-ci ildə Vətən müharibəsində iştirak edərək torpaqlarımızın azad olunmasında şücaət göstəriblər.

Kərəm Mustafayev 14 may 2014-cü ildə isə Beşinci Ordu Korpusunun əsasında yaradılan Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun Komandanı təyin olunub. O, 25 may 1998-ci ildə general-mayor, 19 yanvar 2002-ci ildə genertal-leytenant, 25 iyun 2020-ci ildə isə general-polkovnik ali hərbi rütbələri verilib.

2024-cü il iyulun 5-də sosial mediada və xəbər saytlarında müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordusunun komandanı Kərəm Mustafayevin tutduğu vəzifədən azad edilməsi, əvəzinə isə bu vəzifəyə Kənan Seyidovun təyin olunması ilə bağlı xəbərlər yayılıb. İyulun 8-də isə Kərəm Mustafayevun son günlərdə istintaqı aparılan cinayət işlərindən biri ilə bağlı müstəntiqlərə ifadə verməsi ilə bağlı xəbər dərc edilib. Qeyd edilən məsələlərlə bağlı rəsmi açıqlama verilməyib.

Seyidov Kənan Əlhüseyn oğlu 1974-cü il dekabr ayının 23-də Sumqayıtda anadan olub, əslən İmişlinin Bəhrəmtəpə qəsəbəsindəndir. Kənan Seyidov uzun illər Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. Xüsusi Təyinatlı Qüvvələr Komandanının birinci müavini - Qərargah rəisi vəzifəsinə təyin olunub. 2020-ci ilin sentyabrın 27-də başlanan hərbi əməliyyatlar zamanı fərqlənib. Prezidentin sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanı adı ilə təltif edilib, general-mayor ali hərbi rütbəsinə verilib. 23 iyun 2021-ci ildə Xüsusi Təyinatlı Qüvvələr Komandanının birinci müavini - Qərargah rəisi vəzifəsindən azad edilib və 5-ci Ordu Korpusunun Komandiri vəzifəsinə təyin edilib.

Əlahiddə Ümumqoşun Ordusunun Komandanının birinci müavini - Qərargah rəisi general-leytenant Fazil Ağalarov açıqlamasında Kərəm Mustayevin vəzifədən azad olunduğunu təsdiqləsə də, Kənan Seyidovun təyinatı barədə danışmayıb. Kərəm Mustafayevin adı Müdafiə Nazirliyinin rəsmi saytında (mod.gov.az) iyulun 10-da çıxarılıb. Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevdir. Nazirin daha bir müavini Quru Qoşunları Komandanı general-leytenant Hikmət Mirzəyevdir. Hərbi Hava Qüvvələri Komandanı da nazir müavini statusundadır. Nəhayət, müdafiə nazirinin müavini və baş direktor Aqil Qurbanovdur. Bundan əvvəl nazirliyin Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi və Əlahiddə Ümumqoşun Ordusunun Komandanı da nazir müavini statusunda idi.

Ekspertlərə görə, Müdafiə Nazirliyinin struktur bölməsində edilən dəyişiklik mühüm əhəmiyyətə malikdir. Azərbaycan Ordusu da uzun müddətdir yeni iş mexanizminə keçib. Bu zaman Türkiyə Müdafiə Nazirliyinin təcrübəsi əsas götürülüb. O da bildirilir ki, təkcə Müdafiə Nazirliyində deyil, daha aşağı strukturlarda, hərbi hissələr, briqadalar, korpuslar, ali hərbi təhsil ocaqlarında da bu cür struktur dəyişiklikləri gözlənilənədir. Bu dəyişikliklər NATO sisteminə yaxınlaşmaq baxımından da önəmlidir. Çünki atılan bu addımlar, idarəetmə sisteminin təkmilləşməsi ordumuzun döyüş qabiliyyətinin artmasına ciddi təkan verəcək.

❑ **Orxan ƏLİYEV, "Yeni Müsavat"**



## Noyabrda şagirdlər 10 günlük tətilə buraxılacaq

### Bakı, Sumqayıt və Abşeronda tələbələr distant təhsil alacaq

**Nazirlər Kabineti "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçiriləcəyi dövrdə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" qərar verib.**

APA xəbər verir ki, qərara əsasən, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrində (xüsusi təhsil müəssisələri istisna olmaqla) təhsilin pillələri üzrə tədris və təlim-tərbiyə prosesinin aşağıdakı qaydada təşkili təmin ediləcək:

- ümumi təhsil pilləsi üzrə - 2024-cü il noyabrın 12-dən 22-dək payız tətili;

- peşə, orta ixtisas və ali təhsil pillələri üzrə - Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonunda 2024-cü il noyabrın 12-dən 22-dək distant (məsafədən) formada təhsil.

## DTX və DSX birgə əməliyyat keçirdi

**Elm və təhsil Nazirliyi yuxarıda qeyd edilənlər nəzərə alınmaqla təhsil proqramlarının təhsil alanlar tərəfindən tam mənimsənilməsini təmin etmək məqsədilə müvafiq tədbirlər həyata keçirməlidir.**

Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidmətinin narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı birgə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində İran İslam Respublikasının vətəndaşları tərəfindən Azərbaycan ərazisinə qaçaqmalçılıq yolu ilə keçirilmiş külli miqdarda narkotik vasitə aşkar edilərək götürülüb.

Görülmüş təxirəsalınmaz tədbirlərlə qeyd olunan xarici ölkənin vətəndaşlarının Bakı şəhəri, Sabunçu rayonu, Pirşağı qəsəbəsində yol kənarındakı yaşıllıq ərazidə gizlətdikləri və ümumilikdə 74 kq 163 qr çəkisi olan qurudulmuş marixuananı həmin ərazidən götürüb oradan uzaqlaşarkən Azərbaycan Respublikasının vətəndaşları - 1982-ci il təvəllüdlü Qasımov Vəli Mahir oğlu, 1988-ci il təvəllüdlü İsgəndərov İsgəndər Cəfər oğlu, 1993-cü il təvəllüdlü Süleymanzadə Aqşin Yusifəli oğlu və vətəndaşlığı olmayan 1982-ci il təvəllüdlü Daşdəmirov Çingiz Fakralı oğlu cinayət başında yaxalanıblar.

Fakt üzrə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən narkotik vasitələrin qaçaqmalçılığı), 234.4.1 və 234.4.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən külli miqdarda narkotik vasitələrin qaçaqmalçılığı) maddələri ilə cinayət işi başlanılmış və adıçəkilən şəxslər cinayət məsuliyyətinə cəlb ediliblər.

## Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin yeni rəisi kim olacaq?

### Qadın prokuror rəis müavini təyin edilib

**Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin rəisi Nazim Abbasov vəzifəsindən azad edilib. Bu barədə nazir Fərid Əhmədov əmr imzalayıb. N.Abbasov təqaüd yaşı tamam olduğu üçün öz arzusu ilə tutduğu vəzifədən azad edilib.**

Qeyd edək ki, Nazim Abbasov peşəkar istintaqçı kimi tanınır. O, uzun illər Baş Prokurorluqda İstintaq nəzarət idarəsinin rəisi işləyib. 2019-cu ildə Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin rəisi təyin edilmişdi.

Ədliyyə Nazirliyində ən mühüm postlardan biri də istintaq idarəsidir.

İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır: qanunvericiliklə müəyyən edilmiş hallarda cinayət işləri üzrəibtidai istintaq aparır; törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxır, cinayət işinin başlanması və ya cinayət işinin başlanmasının rədd edilməsi məsələlərini həll edir; qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.




İdarə fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir: İdarənin icraatına daxil olan törədilmiş və ya hazırlanan cinayətlər haqqında məlumatlara baxmaq, cinayət işi başlamaq vəya cinayət işinin başlanmasını rədd etmək, zərurət olduqda materialların aidiyyəti orqana göndərilməsi məsələsini həll etmək; başlanmış cinayət işləri üzrə qanunvericiliklə müəyyən edilmiş müddətdə tam, hərtərəfli və obyektiv ibtidai istintaq aparmaq və digər prosessual hərəkətləri həyata keçirmək; pozulmuş insan və vətəndaş hüquq və azadlıqlarının bərpa edilməsini, dövlətin mənafelərinin qorunmasını, cinayətin törədilməsi nəticəsində vurulmuş maddi ziyanın ödənilməsini təmin etmək.

Ədliyyə Nazirliyinin İstintaq İdarəsinin yeni rəisinin kimliyi yəqin ki, yaxın günlərdə bəlli olacaq.

Avqustun 1-də baş prokuror Kamran Əliyevin müvafiq əmrinə əsasən isə Selcan Familzadə Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini vəzifəsinə təyin edilib.

Qeyd edilib ki, Selcan Familzadə 2016-cı ildə müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa qəbul olunub. O, əvvəllər Ağsu rayon prokurorunun köməkçisi və Baş Prokurorluğun İstintaq idarəsinin böyük prokuroru vəzifələrində işləyib.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

# Brüssel sülh danışıqlarını kimin pozduğunu gizlədir

## Şarl Mişelin məyusluğunu anlamaq olar, amma prosesi pozan Ermənistanın baş nazirinin adını çəkməməklə...

**Avropa Şurasının prezidenti Şarl Mişel Azərbaycan və Ermənistan arasında davamlı sülhün bərqərar olunmasına yönəlmiş səyləri yeniləmək istəyir. Bu barədə "Politico" yazıb. Nəşrlə danışan iki yüksək səviyyəli diplomat Mişelin bu ayın ortalarında Böyük Britaniyada Avropa Siyasi Birliyinin sammiti çərçivəsində Azərbaycan və Ermənistan liderləri ilə ikitərəfli görüşlər keçirdiyini təsdiqləyib. Bu görüşlər barədə əvvəllər məlumat verilməyib. Mişel həmçinin hər iki tərəfə məktub yazaraq, onları danışıqlar masasına qayıtmağa və sərhədlərin delimitasiyası kimi məsələlərdə irəliləyiş əldə edərək sülh sazişini yekunlaşdırmağa çağırıb.**

Nəşr qeyd edir ki, çoxdan gözlənilən razılaşmanın baş tutmadığından və aylarla davam edən diplomatik səylər dalana dirəndikdən sonra Brüsseldə məyusluq artıb. Lakin çoxdan gözlənilən razılaşma baş tutmur və bu, Brüsseldə məyusluq yaradır.

Qeyd edək ki, iyulun 18-də İngiltərədə Azərbaycan və Ermənistan liderlərinin sammit çərçivəsində görüşü gözlənilsə də, Paşinyan dialoqda iştirakdan boyun qaçırıb. İmtina ilə bağlı ən çox yayılmış versiya odur ki, Paşinyan Əliyevlə danışıqlarda Avropa Şurasının prezidenti Şarl Mişel və mümkünsə Fransa prezidenti Emmanuel Makronun iştirakını istəyib. Bu şərtin yerinə yetirilməsinin qeyri-mümkün olduğunu anlayanda isə regional sülh prosesini geriyə atıb. Son illər Ermənistanla Azərbaycan arasında sülh danışıqları ayrı-ayrılıqda həm Avropa İttifaqının, həm Vaşinqtonun, həm də Rusiyanın vasitəçiliyi ilə aparılıb. Amma hər üç formatda yekun nəticə əldə edilməyib. Yəni sülh danışıqlarının ağırlığını öz tərəfinə çəkməyə çalışanlar var, amma bu səylərin sülhə töhfə verə biləcəyi ağlabatan görünmür. Vaşinqton hələ də sülhlə bağlı razılaşmaya çağırış etməklə işini bitmiş hesab edir, Moskvanın son moderatorluq təklifinə isə İrəvan münasibət bildirməyib. Brüssel isə göründüyü kimi, danışıqları məhz Paşinyanın pozduğunu dilə gətirmək istəmir.

Yada salaq ki, Ermənistan silahlı qüvvələrinə dəstək üçün Avropa Sülh Fondu Ermənistana 10 milyon avroluq yardım paketi ayırıb. Əcnəbi ekspertlərə görə, Ermənistana ayrılan vəsaitlərin humanitar təyinatı, aldadıcı olmaq ehtimalı böyükdür.

**Deputat Bəhruz Məhərrəmov hesab edir ki, Ermənistan silahlı qüvvələrinə milyonlarla yardım ayıran bir təsisat Azərbaycan və Ermənistan arasında real sülhdə maraqlı ola bilməz:** "Azərbaycan sülh prosesinə xidmət edən heç bir platformadan geri çəkilməyib. O cümlədən Şarl Mişelin təşəbbüsü ilə başlanmış, Avropa İttifaqı çərçivəsində həyata keçirilən danışıqlara da böyük ümid və gözləntilərlə yanaşıb. Lakin sonrakı dövrlər, xüsusən 2022-ci ilin Praqa prosesindən sonra Fransa prezidenti Emmanuel Makronun bu prosesə qeyri-adekvat müdaxiləsi, o cümlədən Fransanın Avropa İttifaqındakı nisbi hakim mövqeyi Avropa İttifaqı platformasını real sülh üçün effektsiz və qərəzli mühitə çevirdi. Sonrakı dövrdə Avropa İttifaqının "sülhə xidmət edən" monitorinq missiyası adı altında regiona hərbi və təhlükəsizlik əməkdaşlarını yollaması, daha sonra bu missiyanın Avropa İttifaqına üzv olmayan digər dövlətlərin də nümayəndələri ilə "zənginləşdirilməsi" proseslərdə Avropa İttifaqının bitərəf rolunu tamamilə kölgələdi. Sonrakı dövrlərdə Qranada prosesində Avropa İttifaqının Fransanın dirijor çubuğuna tabe edilməsi, ardınca Avropanın digər strukturları, o cümlədən Avropa Parlamentində, Avropa Şurasında, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan əleyhinə səslənən ədalətsiz, qərəzli və məqsədli hücumlar əslində Avropa İttifaqının çoxdan ayırıcı xətlərin qurbanına çevrildiyini göstərdi. Digər tərəfdən, Avropa İttifaqının ayrı-ayrı strukturlarının, o cümlədən Sülh Fondunun Ermənistan silahlı qüvvələrinə açıq yardım paketini təsdiqləməsi sülh prosesində Avropa İttifaqının dayandığı nöqtə ilə bağlı təsəvvürlərimizi tamamilə aydınlaşdırdı. Bildiyiniz kimi, Azərbaycan Ermənistanla sülh prosesinin beynəlxalq gündəliyin məsələsi olmadığını, ayrı-ayrı dövlətlərin regiona münasibətlərinin Azərbaycan-Ermənistan münasibətlərindən asılı olmadığını dəfələrlə bəyan edib. Prezident İlham Əliyevin Azərbaycan və Ermənistan arasında danışıqların vasitəçisiz formada daha effektiv olacağına dair qəti qənaəti sonrakı dövrlərdə 7 dekabr bəyanatı, habelə 19 aprel razılaşmaları fonunda özünü bir neçə dəfə köklü surətdə doğruldub. Belə olan təqdirdə, əlavə platformaların axtarışı, o cümlədən digər subyektlərin prosesə müdaxiləsi imkanlarının formalaşdırılması bölgədə sülh və sabitlik üçün yaxşı heç nə vəd etmir. O cümlədən Ermənistanın özünün fərqli platformalar axtarmaq cəhdi də səmimi deyil. Belə bir situasiyada Avropa İttifaqının yenidən fəallaşması, yaxud yenidən dialoqun bərpası ilə bağlı təşəbbüslə çıxış etməsinin real nəticəsi çətin ki, olsun. Hələ də revanşist əhvalda olan Ermənistan silahlı qüvvələrinə milyonlarla yardım ayıran bir təsisat Azərbaycan və Ermənistan arasında real sülhdə maraqlı ola bilməz".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli erməni baş nazirin Ali Baş Komandanla görüşlərdən çəkindiyini bildirdi:** "Ermənistan həmişə danışıqları pozub, sonra isə hərbi gərginlik artıb. Azərbaycan həmişə istədiyini diplomatik deyil, hərbi yolla alıb. Əgər Ermənistan yenə güc yolu ilə növbəti güzəştlərə getmək istəmirsə, Azərbaycanın tələblərini yerinə yetirməlidir. Əks halda, hər dəfə yaşadığı aqibəti görəcək. İstər ikitərəfli, istərsə də çoxtərəfli Azərbaycan-Ermənistan danışıqlarına gəlincə, görünən odur ki Paşinyan Əliyevlə görüşlərdən çəkinir. Hər bəhanə ilə bu cür görüşlərdən yayınmaq istəyir. Birgə şəkillərdə də görmək olar ki, necə Paşinyan Əliyevin yanında özünü əzik hiss edir. Hesab edirəm ki, Ermənistanın masa arxasında növbəti destruktiv hərəkətləri Azərbaycan tərəfindən sərt cavablandırılmalıdır. Əgər Ermənistan Azərbaycanın tələblərini rədd etsə, buna adekvat cavab verilməlidir. Nəticə qazanmaq istəyiriksə, hər dəfə olduğu kimi güc yolu ilə, yəni hərbi güc tətbiq etməklə buna nail ola bilərik".



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə qeyd etdi ki, Şarl Mişel ötən il və bu ilin başlanğıcında Azərbaycanla Ermənistan arasında aktiv vasitəçilik və moderatorluq etdi:** "Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan onun vasitəçiliyindən razı idilər. Danışıqlarda irəliləyiş və müəyyən razılaşmalar var idi. Ancaq sonrakı mərhələdə Fransa prezidenti Emmanuel Makron görüşlərdə iştirak etmək istədi və Şarl Mişel bununla razılaşdı. Bu isə Azərbaycanın maraqlarına zidd idi. Çünki Makron İkinci Qarabağ müharibəsindən bu yana Ermənistanı və erməni separatizmini dəstəkləyir, Azərbaycan əleyhinə təxribatçı açıqlamalar verirdi. Bu şəraitdə İlham Əliyev Brüsselin Parislə birgə vasitəçiliyinə razılaşa bilməzdi. Bu səbəbdən Şarl Mişelin əvvəlki fəaliyyəti Makronun pozuculuğu sayəsində heçə endi. Bundan sonra Berlin və Vaşinqton Azərbaycanla Ermənistan liderləri və xarici işlər nazirləri arasında moderatorluq etməyə başladılar. Bakı və İrəvan bu moderatorluğa müsbət yanaşdılar. Bununla Avropa İttifaqı arxa plana keçdi. Moskva da Azərbaycanla Ermənistan arasında moderatorluq etmək istəyir və liderlərin Rusiya paytaxtında görüşünü təşkil etmək istəyir. Ancaq Ermənistanın baş naziri Nikol Paşinyan Moskvanın moderatorluğunu əleyhinədir. Bu səbəbdən də Moskva da Brüssel kimi arxa plana keçib. Azərbaycanla Ermənistan arasında birbaşa danışıqların və razılaşmaların alternativi yoxdur. İki ölkə arasında son razılaşmalar məhz birbaşa danışıqlar nəticəsində əldə olunub".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Bakı masaya bu ərazilərin qaytarılması şərtini qoyur

### "Vaxtilə Azərbaycan xalqının icazəsi və rəyi olmadan ermənilərə verilən torpaqlar geri qaytarılmalıdır"

**"Sülhə aparan yol uzundur: "Bundan sonra da danışıqlar davam edəcək. Müxtəlif mövzulara aid müzakirələr bitdikdən sonra müxtəlif sənədlər əldə ediləcək. Bu sənədlər isə yekun sülh sazişi kimi bir razılaşma ilə nəticələnə bilər. Eyni zamanda müxtəlif sahələrə aid bir neçə sazişdən ibarət razılaşma sənədi imzalanmış olar.**

Delimitasiya və demarkasiya ilə bağlı ayrıca bir sənədin əldə edilməsi mümkündür. Ya da bu, yekun sülh sazişinin tərkib hissəsində yer ala bilər. Həmçinin kommunikasiya xətlərinin açılmasına dair xüsusi bir sənədin razılaşdırılması ehtimalı var. Hətta bu məsələlərə aid olan hissənin yekun sülh sazişində, ya da ayrıca bir sənəd kimi imzalanması realdır. Azərbaycan tərəfi də məhz bu məsələləri bəyan edib".

Azərbaycanın sabiq xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov Teleqraf.com-a müsahibəsində belə deyib.

**"Sizcə, Bakı Zəngəzur dəhlizinin hansı şərtlər əsasında açılmasında maraqlıdır" sualına T.Zülfüqarov belə cavab verib:** "Azərbaycanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi bəllidir. Burada əsas amil Azərbaycanın özünün əsas hissəsi ilə Naxçıvan arasında kommunikasiya yaratmağa nail olmaq niyyətidir.

Vaxtilə bolşeviklərin qərəzli qərarları nəticəsində Azərbaycan iki hissəyə bölünüb. Nəticədə tarixi Azərbaycan torpaqları olan Zəngəzur Ermənistana verilib. Təbii ki, bu vəziyyət Azərbaycanın dövlətçiliyinə çox böyük ziyan gətirən bir haldır. Azərbaycanın da indiki halda istəyi odur ki, bu məsələ həllini tapsın.

Tarixi ədalət bərpa edilməlidir. Vaxtilə Azərbaycan xalqının icazəsi və rəyi olmadan ermənilərə verilən torpaqlar geri qaytarılmalıdır. Eyni zamanda bunun əksinə olaraq eksteretorial şəkildə dəhliz yaranmalıdır. Bununla da Azərbaycan dövlətinin iki hissəsi arasında təhlükəsiz, sərbəst gediş-gəliş yaranmış olacaq.

Azərbaycan bu məsələdə digər ölkələrin öz maraqlarını irəli sürməsi fonunda özünün fundamental maraqlarından geri çəkilməyəcək".

❑ **"Yeni Müsavat"**

# ABŞ Bakıya qarşı sanksiya ritorikasından əl çəkdi - pərdəarxası...

## Rəsmi Vaşinqton Azərbaycana qarşı diplomatik danışıqlardan kənara çıxacaq hər hansı "üsullardan" istifadə niyyətində deyil - siyasətçilər səbəbləri açıqladılar



**"ABŞ Azərbaycandakı həbslərə münasibətdə diplomatiyaya diqqət yetirir. Biz diqqətimizi diplomatiyaya yönəltməyə davam edəcəyik" - "Turan" xəbər verir ki, bunu Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patel həftəlik brifinqdə deyib. "ABŞ-ın bu problemi həll etmək üçün istifadə edə biləcəyi vasitələr" barədə suala cavab verən Patel "ABŞ-ın başqa üsulları yoxdur" cavabını verib.**

Buna qədər "başqa üsullar" kimi sanksiya tətbiqi çağırışları səslənirdi. Amma ABŞ-ın sanksiya ritorikasından imtinası təsadüfi deyil. Yada salaq ki, İkinci Şuşa Qlobal Media Forumunda



Prezident İlham Əliyev Azərbaycan-ABŞ münasibətlərindən danışarkən sanksiyalar mövzusuna da toxunmuşdu.

**Sitat:** "Bizim ABŞ-la münasibətlərimiz demək olar ki, hər zaman sabit olub. Əlbəttə ki, müəyyən enişli-yoxuşlu dövrlər olub və o da bizim günahımız deyildi. Çünki bəzən Azərbaycanla bağlı müəyyən şişirdilmiş gözləntilər olub. Digər tərəfdən, onlar bizim siyasi həyatımıza müdaxilə etməyə çalışıblar, siyasi müxalifəti maliyyələşdirmək cəhdləri ediblər. Bu cəhdlər birbaşa və ya müəyyən QHT-lər vasitəsilə olub. Bütün bu enişli-yoxuşlu dövrlərə baxmayaraq, biz münasibətlərə strateji, vacib mövqedən yanaşmışıq və biz burada mümkün qədər əlimizdən gələni etməyə çalışmışıq".

**Əfqanıstandakı antiterror koalisiyasında Azərbaycanın fəaliyyətini yada salan dövlət başçısı təəssüflə vurğulamışdı ki, bu missiya başa çatdıqdan sonra ABŞ hakimiyyəti yenidən ölkəmizə qarşı 907-ci düzəlişi - sanksiyanı bərpa edib:** "Buna heç bir məntiqi əsaslandırma və izah təqdim etmədən, bu da onların bizə təşəkkürü. Uzun illər ərzində biz onlara qarşı etdiyimizin və yaxşı tərəfdaş olduğumuzun müqabilində Azərbaycan xalqı nə düşünə bilər bu fdministrasiya (söhbət Bayden administrasiyasından gedir - red.) haqqında? Yəni deməli, siz onlara lazım olanda olursunuz yaxşı bir adam, yaxşı bir ölkə, sizin haqqınızda təriflər yağdırırlar. Onların sizə ehtiyacı olmayanda nəinki sizə biganə yanaşırlar, hətta sanksiyalar tətbiq edirlər. Nəyə görə? Çünki biz suverenliyimizi və ərazi bütövlüyümüzü bərpa etmişik. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini geri qaytardıq. Bunu hərbi və siyasi yolla etdik və dərhal bizə qarşı sanksiya tətbiq edildi. Yəni bu, çox məyusedici bir haldır. Həmin o müxtəlif bəyanatlarda bizə qarşı istifadə edilən terminlər, yəni "Azərbaycanla bundan sonra əlaqələr əvvəlki kimi ola bilməz", (söhbət dövlət katibinin müavini O'Breyn söylədiklərindən gedir - red.) belə bir bəyanat verdilər, amma nə oldu? Yenidən adi qaydada əlaqələrə qayıtdıq".

Dövlət Departamentinin mətbuat katibinin müavini Vedant Patelin mövqeyi də onu göstərir ki, Amerikadakı erməni lobbisi və bir qrup ermənipərəst konqresmen hansısa məmurlara qarşı sanksiya tətbiqi cəhdləri ilə gərginləşdirməyə çalışsa da, Vaşinqton Azərbaycanın bölgədəki əhəmiyyətini anlayır. ABŞ başa düşür ki, Bakı ilə bu dildə danışmaq fayda verməyəcək və əks-təsir göstərəcək. Hətta bundan Rusiyanın istifadə edəcəyi şübhə doğurmur. Amerika dərk edir ki, Cənubi Qafqaz ölkələrini sıxışdıranda, Rusiya regionda mövqeyini möhkəmləndirməyə çalışır. Üstəlik, Azərbaycan ABŞ-la müxtəlif sahələrdə əməkdaşlıq və tərəfdaşlıq edir. Həmçinin Ukraynaya humanitar yardımlar da Ağ Evin diqqətindən yayınmamalıdır. Ermənistanı az qala "demokratiya incisi" kimi əzizləyən ABŞ görməlidir ki, Paşinyan hökuməti sanksiyalardan yayınmaqda Rusiyaya necə kömək edir. Ona görə də artıq bizə münasibətdə ritorika yumşaq fazaya keçməkdədir...

**AMİP sədri Arzuxan Əlizadə "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın Azərbaycana münasibətində kardinal dəyişikliyini görməkdəyik:** "Ceyms Obrayenin Konqresdəki fikirlərindən sonra Blinkenin Prezidentə üzrxahlıq zəngi və sonra müavinin Bakıya səfəri göstərdi ki, ritorika dəyişib. Ondan sonrakı addımlar da bunu təsdiq edir. Əslində belə də olmalı idi. Azərbaycan regionda reallıqları dəyişən dövlətdir və güclüdür, Amerika da qəbul edir ki, bu ölkə ilə yalnız əməkdaşlığı davam etdirmək lazımdır. Sözsüz ki, region bir sıra güclərin diqqət mərkəzindədir. Xüsusən də İranla əlaqələr və Rusiyanın bölgədə mövcudluğu ABŞ-ı Azərbaycanla fərqli ritorikada danışmağa, əməkdaşlığı genişləndirməyə vadar edir".

**Partiya sədri qeyd etdi ki, ümumiyyətlə, sanksiyaların tətbiqi fayda verməyəcəkdi:** "Azərbaycan Avropanın enerji tələbatının ödənilməsində önəmli rol oynayır. İndiki halda sanksiya tələbi isə Rusiyanın regionda gücünü artıra bilər. Vaşinqton bu nəticəni hesabladığı üçün belə bir addıma getməzdi. Ən əsası isə ABŞ-ın müttəfiqi olan Avropa Birliyinin 9 ölkəsi ilə tərəfdaşıq, Qərbin enerji tələbatının qarşılanmasında belə bir mühüm rolumuz varsa, Amerika Azərbaycan əleyhinə nə üçün sanksiya tətbiq etməlidir?"

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli isə açıqlamasında əlavə etdi ki, ABŞ-dan sanksiya çağırışları ermənipərəst konqresmenlərdən eşidilirdi:** "Onlardan biri Menenedez idi ki, aqibəti göz qabağındadır. Ümumən, erməni lobbisinin pulları batdı və konqresmenlərin layihəsi baş tutmadı. Onlar xərclədikləri pullarla Konqresdə Azərbaycan əleyhinə qətnamələr qəbul olunacağını gözləyirdilər. Amma "artsaxa hücum", "Qarabağda etnik təmizləmə" və digər məsələlər barədə irəli sürülən qətnamə layihələri keçərli olmadı. Eyni zamanda qətnamə layihələri ilə yanaşı sanksiyalara çağırırdılar. Amma bu təkliflər də reallaşmadı. ABŞ-ın rəsmi mövqeyi ilə Konqresdəki erməni əlinə baxanların baxışı üst-üstə düşmürdü".

**VHP rəsmisi bildirdi ki, zaman-zaman münasibətlərdə gərginlik olsa da, ABŞ Azərbaycanı itirmək istəməz və cəza verməklə özündən uzaqlaşdırmaz:** "Bayden administrasiyası dövründə əlaqələr hamar olmadı, amma son aylarda düzəlmə var. Baydenin məktubları da bunu təsdiq edir. Noyabrda seçkilərin qalibi kim olacaqsa, o zaman proqnoz vermək olar ki, ABŞ-Azərbaycan əlaqələrinin yeni mərhələsi necə davam edəcək. Sadəcə, hazırkı administrasiya Paşinyanı Rusiyaya qarşı siyasətdə dəstəklədiyi üçün bu, Bakı-Vaşinqton əlaqələrinə də təsir edir".

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

## Ermənilər narahat edən sual: "Bayden getsə, Azərbaycana münasibət..."

**ABŞ Dövlət Departamenti Amerika administrasiyasında mümkün dəyişikliklərdən sonra Vaşinqtonun xarici siyasətinin dəyişdirilməsi məsələsi ilə bağlı qeyd edib ki, hökumətin xarici siyasəti müxtəlif prezident administrasiyaları dövründə dəyişə bilər, lakin ABŞ xarici siyasətinin əsas prinsipləri dəyişməz olaraq qalır.**

Bu barədə ABŞ Dövlət Departamenti "Amerikanın Səsi" radiosunun erməni xidmətinin suallarını cavablandırarkən bildirib.

Dövlət Departamenti son Ermənistan-Amerika təlimləri, eləcə də Azərbaycanın onlara reaksiyası ilə bağlı sualları cavablandıraraq qeyd edib ki, rəsmi Vaşinqton Ermənistanla uzunmüddətli tərəfdaşlığa malikdir və buna misal olaraq Kanzas Milli Qvardiyası ilə əməkdaşlıq çərçivəsində sabit əməkdaşlıq edir. ABŞ Müdafiə Nazirliyinin dövlət tərəfdaşlığı proqramı var.

"Birləşmiş Ştatların Azərbaycanla ayrı-ayrı müdafiə və təhlükəsizlik əlaqələri var, o cümlədən çoxmilləti hərbi təlimlərdə əməkdaşlıq mövcuddur, Gürcüstanda bu yaxınlarda keçirilən Çevik Ruh təlimi, NATO-nun Sülh Naminə Tərəfdaşlığı və bir sıra digər ikitərəfli formatlar mövcuddur. Məsələn, ABŞ Müdafiə Nazirliyi Dövlət Tərəfdaşlığı Proqramı" - deyə qeyd olunub.

ABŞ Dövlət Departamenti Cənubi Qafqazdakı vəziyyət, eləcə də regional sabitliklə bağlı məsələlər barədə son brifinq zamanı öz nümayəndəsinin bəyanatını təsdiqləyib: "Ermənistan-Azərbaycan sülh sazişinin bağlanması istiqamətində mühüm irəliləyişə nail olmaqda davam edir və biz bu prosesi dəstəkləməyə hazırıq".

Dövlət Departamenti ABŞ-da seçkilərdən sonra hakim administrasiyada mümkün dəyişiklikdən sonra Amerikanın Cənubi Qafqazdakı xarici siyasətinin dəyişikliklərə məruz qala biləcəyi sualına da cavab verib və qeyd edib ki, Dövlət Departamenti tərəfsiz bir qurumdur. ABŞ hökumətinin xarici siyasəti müxtəlif prezident administrasiyalarında dəyişə bilər.

"Lakin ABŞ xarici siyasətinin əsas prinsipləri dəyişməz olaraq qalır, o cümlədən Birləşmiş Ştatlarda və dünyada təhlükəsizlik, demokratiya, rifah və inkişafı təşviq etmək", - deyə Dövlət Departamenti bildirib.

Aydın görünür ki, ermənilər Bayden administrasiyasının getməsindən və respublikaçıların hakimiyyətə gəlməsindən narahatdır.

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024



# Vitse-spiker postuna üç ilginc namizəd iddiası - Əhmədov, Qədirli və...

## Növbədənkənar parlament seçkilərindən sonra bu postlarda dəyişikliklər gözlənilir; qanunvericiliyə və Milli Məclisin Daxili Nizamnaməsinə əsasən, vitse-spikerlər belə seçilir...

**Sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkilərindən sonra Milli Məclisin rəhbərliyində ciddi dəyişikliklər olacaq. Spiker Sahibə Qafarova istisna olmaqla, vitse-spikerlərin yenilənəcəyi bildirilir.**

Yenisabah.az bununla bağlı məlumatlar əldə edib. YAP-çı deputatlardan biri sayta deyib ki, hazırda Milli Məclisdə müxalifəti təmsil edən vitse-spiker başqa siyasi partiyanın nümayəndəsi ilə əvəzlənəcək. Onun sözlərinə görə, 2020-ci ildə Vətəndaş Həmrəyliyi Partiyasının seçilmiş nümayəndəsi olaraq, parlament rəhbərliyində təmsilçilik hüququ qazanan Fəzail İbrahimli bu dəfə yerini müxalifətdən olan başqa həmkarına verəcək.

Mənbə deyib ki, Adil Əliyevin boşaltdığı postu da bitərəflərin nümayəndəsi tutacaq. Birinci vitse-spiker vəzifəsinə isə YAP-ın aparıcı fiqurlarından birinin seçilməsi gözlənilir. Həmin şəxsin, hakim partiya tərəfindən deputatlığı irəli sürülmüş, baş nazirin müavini Əli Əhmədov olacağı da istisna edilmir. Başqa bir iddiada isə deyilir ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadənin növbəti dəfə deputat olarsa, parlamentin vitse-spikeri vəzifəsinə seçiləcəyi gözləniləndir. Onun Suraxanı rayonunun icra başçısı vəzifəsinə təyin edilən Adil Əliyevin yerinə Milli Məclis sədrinin bitərəfləri təmsil edən müavini postunu tutacağı iddia olunur.

Məlumatlı şəxs müxalifəti təmsil edəcək vitse-spikerin kimliyini də açıqlayıb. Onun sözlərinə görə, 2020-ci ildə REAL Partiyasından deputat seçilmiş hüquqşünas Erkin Qədirlinin bu posta sahib olmaq şansı digər müxalif həmkarları ilə müqayisədə xeyli böyükdür. Mənbənin iddiasına görə, bu dəfə VHP-nın ana müxalifət olmaq şansı aşağıdır. REAl-ın 2 nümayəndəsinin - İlqar Məmmədovun və Erkin Qədirlinin deputat seçilmək şansı yüksək qiymətləndirilir. Seçki marafonuna Yevlaxdan qoşulan Rəsul Cəfərov isə REAl-a 3-cü mandatı qazandıra bilər. Bu partiya növbədənkənar parlament seçkilərindən sonra Milli Məclisdə hətta iki deputatla təmsil olunsa belə, müxalifət üçün nəzərdə tutulan vitse-spiker postu REAl-ın nümayəndəsinə veriləcək. Yeni vitse-spikerin hazırks deputat Erkin Qədirli olacağı istisna edilmir.



Əli Əhmədov



Erkin Qədirli



Şahin Seyidzadə

Qeyd edək ki, Milli Məclisin sədri deputatlar sırasından gizli (elektron sistemindən istifadə etməklə) səsvermə yolu ilə seçilir. Elektron sistemindən istifadə zamanı nasazlıq yarandıqda gizli səsvermə bülletenlər vasitəsilə keçirilir. Milli Məclisin sədri vəzifəsinə namizədliyi deputatlar irəli sürə bilərlər. Hər deputat yalnız bir namizəd göstərə bilər. Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir.

Səsverməyə azı 10 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Milli Məclisin sədrliyinə hər namizəd Hesablayıcı Komissiyanın tərkibinə əlavə bir deputat daxil edə bilər. Gizli səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclisin sədri seçilir. Namizədlərin heç biri azı 63 səs almadıqda, Milli Məclisin Daxili Nizamnaməsinin 27-ci maddəsində nəzərdə tutulmuş qaydada səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə də heç bir namizəd 63 səs ala bilməzsə, Milli Məclis sədrinin birinci müavininin seçkiləri keçirilir. Milli Məclis sədrinin seçilməsi parlamentin qərarı ilə rəsmiləşdirilir. Bu qərarı Milli Məclisin iclasına sədrlik edən imzalayır.

Milli Məclis sədrinin müavinləri isə Milli Məclisin deputatları sırasından açıq səsvermə yolu ilə seçilir. Vitse-spiker vəzifəsinə namizədliyi ilk növbədə Milli Məclisin sədri, sonra isə deputatlar irəli sürə bilərlər. Milli Məclisin sədri və hər deputat parlament sədrinin birinci müavini və müavini vəzifələrinin hər birinə yalnız bir namizəd göstərə bilərlər.

Öz namizədliyinə etiraz müzakirəsiz və səsvermə keçirilmədən qəbul edilir. Səsverməyə azı 7 deputatın tərəfdar çıxdığı namizədlər buraxılır. Namizədlər çıxış edə və deputatların suallarına cavab verə bilərlər. Namizədlər üzrə müzakirələr keçirilir. Açıq səsvermə nəticəsində azı 63 deputatın səsini almış namizəd Milli Məclis sədrinin müavini seçilir. Namizədlərin heç biri azı 63 səs almadıqda, Daxili Nizamnamənin 27-ci maddəsində nəzərdə tutulmuş qaydada səsvermənin ikinci dövrəsi keçirilir. İkinci dövrədə də heç bir namizəd 63 səs ala bilməzsə, başqa namizədlər göstərilməklə yeni seçkilər keçirilir. Spikerin müavinlərinin seçilməsi Milli Məclisin qərarı ilə rəsmiləşdirilir.

**REAl Partiyasının Siyasi Komitəsinin üzvü Natiq Cəfərli "Yeni Müsavat"a qeyd etdi ki, qanunvericiliyə görə və parlamentin Daxili Nizamnaməsinə əsasən, seçkilərdə ikinci yeri tutan partiya vitse-spikerliyə iddia edə bilər:** "Biz 13 namizədlə seçkilərdə iştirak edirik və məqsədimiz elə ikinci yeri tutmaqdır. Əgər elə bir nəticə əldə etsək, yəni ikinci olsaq, o zaman Milli Məclisin Daxili Nizamnaməsinə istinad edərək, parlamentə seçilmiş üzvümüzün birinin vitse-spiker vəzifəsinə irəli sürülməsi mümkündür".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# ATƏT-in Müşahidə Missiyası Bakıda fəaliyyətə başladı

## Parlament seçkilərini izləyəcək missiyada ATƏT-in 11 ölkəsi təmsil olunur




**ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyası parlament seçkiləri ilə əlaqədar avqustun 1-dən Azərbaycanda fəaliyyətə başlayıb.**

"Bizim seçkilərə müdaxilə etmək, kömək etmək və s. bu kimi səlahiyyətimiz yoxdur, biz sadəcə üzv dövlətin dəvəti əsasında monitorinq aparmaq, prosesi izləmək üçün dəvət olunmuşuq".

Bunu ATƏT-in Demokratik Təsisat və İnsan Haqları Bürosunun (ATƏT/DTİHB) müşahidə missiyasının rəhbəri Ditmir Buşati ATƏT/DTİHB müşahidəçilərinin Azərbaycanda keçiriləcək Milli Məclisə növbədənkənar seçkiləri müşahidə missiyasının açılışı ilə bağlı mətbuat konfransında deyib.

O bildirib ki, fəaliyyətləri ilə bağlı Mərkəzi Seçki Komissiyası və XİN-də qeydiyyatdan keçiblər, görüşləri olub.

Əməkdaşlığa görə təşəkkürünü çatdıran D.Busati ATƏT-in 57 üzvdən ibarət olduğunu, bu ölkələrin əsas insan azadlıqları və fundamental hüquqlarla bağlı öhdəliklər götürdüyünü, bu öhdəliklərdən birinin də seçki prosesinin monitorinqi üçün DTİHB-nin dəvət edilməsi olduğunu vurğulayıb.

"Əsas komandamızın 11 beynəlxalq üzvü var və onlar ATƏT-in 11 ölkəsini təmsil edir. Əsas komandanın üzvləri növbəti bir neçə həftə ərzində Bakıda fəaliyyət göstərəcək, seçkiyə hazırlığı müşahidə edəcəklər. Təhlükəsizlik və satınalma ilə bağlı köməkçi komandamız da var. Bakıdakı əsas komandanın üzvləri Azərbaycanın digər rayonlarına səfər edəcək. Növbəti həftə - 6 avqustda isə 28 müşahidəçi Azərbaycana gələcək. Onlar regional səviyyədə uzunmüddətli müşahidə aparacaqlar", - deyə o bildirib.

**Müşahidə missiyasının rəhbəri əlavə edib ki, 280 qısamüddətli müşahidəçi də prosesdə iştirak üçün müraciət edib:** "Bu müşahidəçilər seçki günündən etibarən prosesdə və səslərin sayılmasında iştirak edəcək.

Xarici müşahidə missiyasının tərkibində olmaq üçün də ATƏT-dən missiya gələcək.

Biz missiyamızı təsbit edilmiş prinsiplərə uyğun həyata keçirəcəyik. Missiyamız seçki prosesini, ona hazırlığı müşahidə edir və biz nəticələri öz hesabatımızda dərc edirik. Seçkinin sonunda isə ilkin qənaətlərimizi açıqlayacağıq.

Seçki prosesinin tamamlanmasından sonra yekun hesabat bir neçə ay ərzində dərc olunacaq, bu hesabatda öz tövsiyələrimizi də təqdim edəcəyik. Biz missiyamızı şəffaf şəkildə həyata keçirəcəyik".

AŞ PA-nın seçkini müşahidə üçün dəvət olunmaması ilə bağlı suala cavab olaraq missiya rəhbəri deyib ki, o, ATƏT-in adından Azərbaycandadır, digər hər hansı təşkilatın prosesi izləmək üçün dəvət olunub-olunmaması barədə şərh verməsi doğru deyil.

"Biz bütün təşkilatlarla əməkdaşlığa hər zaman açıq olmuşuq və bizim mövqeyimiz dəyişməyib. Biz beynəlxalq prinsiplərə əsaslanan metodologiya əsasında prosesi izləyəcəyik", - deyə Ditmir Buşati vurğulayıb.

Qeyd edək ki, D.Buşati Azərbaycan Xarici İşlər Nazirliyində və Mərkəzi Seçki Komissiyasında görüş keçirib.

Ceyhun Bayramov ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun Seçki Müşahidə Missiyasının rəhbəri Ditmir Buşati ilə görüşündə seçkilərə hazırlıq məsələləri və bu istiqamətdə beynəlxalq öhdəliklər müzakirə olunub. Nazir bu ilin əvvəlində keçirilmiş prezident seçkisi kimi qarşıdan gələn seçkilərin də azad, ədalətli və şəffaf keçirilməsi üçün ardıcıl, sistemli və intensiv şəkildə atılan addımlar, eləcə də beynəlxalq müşahidəçilərin seçkilərdə iştirakı ilə bağlı tədbirlər barədə qarşı tərəfə ətraflı məlumat verib.

Prezident seçkisindən sonra parlament seçkilərinin də ilk dəfə olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərini əhatə etməsinin tarixi bir məqam olduğu vurğulanıb. Seçkilərin qanunvericiliyin tələbləri əsasında, beynəlxalq standartlara tam cavab verən, yüksək səviyyədə təşkili üçün müvafiq şəraitin yaradıldığı qeyd olunub.

Bununla yanaşı, seçki müşahidə missiyalarının müvafiq qaydalara və mandatlarına uyğun olaraq seçkilərin müşahidəsi prosesində obyektiv və qərəzsiz yanaşma tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

# İşsiz qalan müəllimlərin taleyi yenidən gündəmdə

## Ekspert: "İki nazirlik onları dövlət, ya da özəl sektorda işlə təmin edə bilər"

**"Müəllimlərin sertifikasiya imtahanında nəticəsi uğursuz olan 4300-dən çox müəllimin işinə xitam verilib". Bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli jurnalistlərə açıqlamasında deyib.**

Onun sözlərinə görə, müəllimlərin sertifikasiyası üçün 10 500-dən artıq vakansiya təqdim olunub, 22 mindən artıq müəllim müsabiqədə iştirak edib: "Müsabiqədə iştirak edə bilmədiyi üçün işdən çıxarılan müəllimlərin dərs saatları həmin məktəblərdə fəaliyyət göstərən digər müəllimlərə paylanılacaq".

N.İsmayılbəyli bildirib ki, 712 məktəbdə vakansiya yaradılıbsa, bunlardan 563-ü Azərbaycan dili və ədəbiyyat müəllimliyini əhatə edir. O bildirib ki, sertifikasiya nəticəsində işdən çıxarıldıqdan sonra 90-a yaxın şəhid ailə üzvü olan müəllim sosial həssas kateqoriyadan olduğu üçün alternativ işlə təmin olunub. Bəs digərlərinin taleyi necə olacaq, çünki onların arasında ailə başçısı olmayan və ya həyat yoldaşı da işləməyənlər var. Yəni dövlət xüsusi bir proqram hazırlamalıdır, yoxsa onlar gedib digər sahələrdə iş tapmalıdırlar ki, bu da o qədər asan deyil.



Xatırladaq ki, ötən il Milli Məclisin "Təhsil haqqında" Qanuna etdiyi əlavə və dəyişikliklərin məcmusunda qeyd edilib ki, məktəblərdə 60 və daha yuxarı yaşda olan müəllimlərin sertifikatlaşdırmada iştirakı könüllü olacaq? Əgər müəllim yüksək əmək haqqı arzu edirsə və 65 yaşdan sonra müqaviləsinin mövcud qaydalara uyğun artırılmasını istəyirsə, sertifikasiyada iştirak edib müsbət nəticə əldə etməlidir. Sınaq məqsədilə iştirak etmək mümkün deyil. Əgər iştirak edib keçməyən müəllimlərə bir il sonra təkrar şans veriləcək. Əgər bir sonra da minimum keçid balını toplamasa, onunla bağlanmış müqaviləyə xitam verilir və o, işdən azad edilir. Məktəblərdə ilk dəfə işə qəbul olunan müəllimlər 3 il sertifikatlaşdırmadan keçməyəcəklər? Bu müddət əvvəl 5 il idi, indi azaldıldı. Bağça müəllimləri sertifikatlaşdırmadan keçməlidir. Təhsilin olub-olmadığından asılı olmayaraq, bağçada çalışan müəllim-tərbiyəçilərin hər biri sertifikasiyada iştirak etməlidir.

Onların sertifikasiyada iştirak etməsi məcburidir. Onlar əgər ilk sertifikasiyadan keçməsə, növbəti il bir də şans veriləcəkdir. Amma bu dəfə də keçməsələr, onlarla bağlanmış müqaviləyə xitam verilir və onlar işdən azad edilir.

**Təhsil eksperti Elçin Əfəndi "Yeni Müsavat"a mövzu ilə bağlı fikirlərini bölüşüb:** "Elm və Təhsil Nazirliyi tərəfindən əmək müqaviləsinə xitam verilən 4300-dən çox müəllim sertifikasiyadan keçə bilmədi. Təbii ki, keçmədikləri halda onları təhsil istiqamətində saxlamaq, birbaşa auditoriyaya girib təhsil alanlara müəyyən tədris proqramını vermələri düzgün olmazdı. Nazirlik də bu amili əsas gətirərək müəllimlərin müqaviləsinə xitam verdi. Fikrimcə, bu təkcə nazirliyin deyil, ümumiyyətlə, cəmiyyətin hər bir üzvünün mövqeyidir. Yəqin ki, hər birimiz istəmərik ki, övladımıza öz ixtisası ilə bağlı mövcud fənn kurrikulumunu bilməyən, o cümlədən təhsil standartını bilməyən hər hansı bir şəxs təhsil versin. O ki qaldı əmək müqaviləsinə xitam verilən şəxslərin gələcək fəaliyyətlərinə, növbəti il üçün hazırlaşıb müəllimlərin işə qəbulunda iştirak edə bilərlər. Bundan əlavə, nazirlik tərəfindən sertifikasiyadan keçməyən 400-ə yaxın müəllim-sosial qrupa daxil olan şəxsin işlə təminatına baxılacaq. Onlardan 90 nəfərinə artıq iş imkanları yaradılıb. Qarşıdakı dövr ərzində də belə bir imkan digərləri üçün də yaradılacaq. Amma düşünürəm ki, bununla paralel belə humanist davranış sərgilənirsə, nazirlik və Dövlət Məşğulluq Agentliyi bu istiqamətdə birgə fəaliyyət göstərə bilərlər. Məşğulluq Agentliyi hansısa istiqamətlər üzrə maddi gəlirə ehtiyacı olanları müəyyənləşdirib onların dövlət qurumunda, özəl sektorda iş imkanlarına baxmaları daha yaxşı olar. Hər iki nazirlik bu istiqamətdə ölçü götürə bilər".

**Müəllim İbrahim Həsənzadə də hesab edir ki, müəllimlərin sertifikasiyadan keçməsi təhsil sisteminin keyfiyyətini artırmaq və müəllimlərin peşəkar inkişafını təmin etmək məqsədi daşıyır:** "Hər bir müəllimin vəzifə borcudur keyfiyyətli təhsil versin. Sertifikasiyadan keçməyən müəllimlərin gələcəyi ilə bağlı bir neçə təklif irəli sürmək mümkündür. İlk olaraq deyim ki, müəllimlər əlavə təlimlərə cəlb edilərək, növbəti sertifikasiya imtahanlarında iştirak etmə şansı qazanırlar.

Burada dəstək proqramları olmalıdır, bəzi hallarda, sertifikasiyadan keçməyən müəllimlər üçün xüsusi dəstək proqramları təşkil edilə bilər. Bu proqramlar müəllimlərə zəif tərəflərini inkişaf etdirməyə kömək edə bilər. Müəllimlər digər vəzifələrə keçirilməklə təhsil sistemində fəaliyyətlərini davam etdirə bilərlər. Məsələn, inzibati vəzifələr və ya təlimçi vəzifələri.

Eyni zamanda əgər müəllim təkrar sertifikasiyadan da keçə bilmirsə, müqaviləsinin yenilənməməsi mümkündür. Bu təkliflər ölkənin təhsil siyasətindən və yerli qanunvericilikdən asılı olaraq dəyişə bilər. Sertifikasiyadan keçməyən müəllimlər üçün ən yaxşı yol əlavə təlimlərə qatılmaq və zəif cəhətlərini inkişaf etdirməkdir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Talıbov türk biznesmenin nələrini əlindən alıb - məhkəmə

## Ali Oba yazır ki, əgər mal-mülkü əlindən alınmasaydı, ən azı 10 milyon dollar qazanacaqdı



**Türkiyəli iş adamı Ali Sərdar Oba Naxçıvan Muxtar Respublikası Ali Məclisini məhkəməyə verib. "Qaynarinfo"nun məlumatına görə, onun iddiasına Naxçıvan MR İnzibati Məhkəməsində baxılacaq.**

Məhkəmə işi inzibati orqanların aktları və hərəkətləri (hərəkətsizliyi) ilə əlaqədar mübahisələrlə bağlıdır. Məlum olub ki, Ali Obanın Ali Məclisin indiki rəhbərliyi ilə heç bir problemi yoxdur. Onun problemi Ali Məclisin keçmiş sədri Vasif Talıbovladır. İş adamının 2022-ci ildə Vasif Talıbovla bağlı Dövlət Təhlükəsizlik Xidmətinə şikayət etməsi bu məlumatın əsassız olmadığını ortaya qoyur. Ali Oba şikayətini Türkiyənin muxtar respublikadakı konsulluğu vasitəsilə edib. Bu barədə mediada da məlumat yayılıb.

Türkiyəli iş adamının iddialarına görə, 2015-ci ildən Vasif Talıbov tərəfindən onun biznesinə əl qoyulub. Ali Obanın sözlərinə görə, 2 milyon pul yatırdığı Ordubad Parğaçay Mədən Ocağı, Şərur rayonunun Gümüşlü kəndində 400 min manatlıq balıq vətəgəsi və digər biznes obyektləri əlindən alıb. Bütün bunları şikayətində qeyd edən iş adamı hətta həyatına təhlükə olduğunu da bildirib.

Hələ 2022-ci ilin dekabrında Ali Obanın mətbuatda şikayət mətni yayılmışdı. Ali Oba yazırdı ki, 2007-ci ildən "Oba Qrup" MMC adı ilə fəaliyyət göstərən şirkət yaradıb, istehsal, ticarət, turizm sahələrində xidmət edib: "Ancaq 2015-ci ildə bütün mal varlığımız və yatırımlarımız Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun təlimatı ilə əlimizdən alınıb.

**Əlimdən alınanlar:**

*1. Ordubad, Parağaçay mədən ocağı. 5 ildə 2 min metr dərinlikdə çalışdıq. Xərcim 2 milyon 48 min dollar;*

*2. Sərur, Gümüşlüdə Arpacay balıqçılıq. İldə 1000 ton civarında balıq ciftliyi qurdum. Əlimizdən aldılar. Xərcim: 413 min dollar*

*3. Metro-turizm ilə 2015-20-ci illər üçün 5 illik sistem qurdum. Əlimizdən zorla aldılar. Məsrəf - 105 min dollar.*

*4. Plastik tullantıların istehsalı müəssisəsi. Əlimizdən alındı. Məhkəmə yolu ilə avadanlıqlarımızı geri aldıq, ancaq fabrikdə istehsal olunmuş 91 min 600 dollar dəyərində malımızı qəsb edib, satdıqları üçün pulumuzu ala bilmədik. Sərmayəmizi almadığımız və deport olduğum səbəbindən 6 ildir avadanlığımızı işlədə bilmirik. Bu üzdən zərərim 300 min dollar.*

*5. Haqqımı tələb etdiyim üçün müxtəlif bəhanələrlə 5 illik deport edildim, ailəmdən, uşaqlarımdan ayrılmağa məcbur oldum.*

*6. Bunun nəticəsində ailəm dağıldı, 3 övladım atasız qaldı.*

*7. Vasif Talıbovdan şikayətçi olduğum üçün məhkəmələrdə mənə düşmən münasibəti göstərdilər. Məhkəməyə məni dustaq maşınında aparıb-gətirdilər. Şəxsiyyətimi alçaltmaq üçün hər iş gördülər.*

*8. Vasif Talibovun cinayətlərini məhkəmədə sübut etdiyim üçün 18.03.2020-ci il tarixində məni öldürmək istədilər. Naxçıvandakı dövlət qurumlarına güvənim yoxdur".*

Ali Oba yazırdı ki, əgər mal-mülkü əlindən alınmasaydı, ən azı 10 milyon dollar qazanacaqdı. O qeyd edirdi ki, 15 ildə bütün qurduğum iş yerləri Vasif Talıbovun göstərişi ilə əlindən alınıb. Həmçinin iddialarını sübut edəcək bütün sənədlərin olduğuna da diqqətə çatdırırdı.

"Vasif Talıbovun mənə verdiyi zərərlərin araşdırılmasını və mənə verilən ziyanın ödənməsi üçün lazım olan işərin görülməsini rica edirəm", - deyə Ali Oba müraciətini tamamlayırdı.

Ali Oba şikayət ərizəsində başda Vasif Talıbov və onun haqqını yeyən bütün məmurların cəzalandırılmasını tələb edir. Naxçıvanda ona qarşı törədilən çeşidli cinayətlərin araşdırılmasını, Talıbovların cəzalandırılmasını, ona dəymiş maddi və mənəvi ziyanın ödənilməsini istəyir.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024



# Şirin dərd

Zamin HACI
zaminhaci@gmail.com

**Deyir, 2 avqust milli kino günümüz təntənəli şəkildə qeyd olunacaqdır. Əla. Əsas təntənədir, kino olmasa da olar. Hətta elə o təntənələri çəkib kino adıyla festivallara göndərmək lazımdır. Prinsipcə, bizim bu bayram təxminən o cür yaranmışdır: kimsə kino aparatı gətirib, Bakıda neftin fontan vurmağını lentə alıb, olub milli Azərbaycan kinosu. Eyni məntiqlə Bakıya ilk avtomobilin gətirilməsini də "Milli avtomobil sənayemizin yaranması günü" kimi qeyd edə bilərdik, niyə heç kimin ağlına gəlməyib, başa düşmürəm.**

Bu təkcə bizim keyfiyyətimiz deyil, bütün bölgə bu cürdür. İranda bir ağsaqqal var, işi-gücü Zəngəzur dəhlizi haqda bəyanatlar verməkdir. Səhər namazına durur, deyir qoymarıq o dəhliz açılsın. Günorta duasını eləyir, deyir ermənilərlə qardaşıq. Axşam yatmazdan qabaq da "Zəngəzurun ağzını bağlamaq" cadusu oxuyur, uykuya gedir. Sanki bunların ayrı işi-gücü, dərdi-səri yoxdur. Ara yerdə qonaqlar havaya uçur.

Ta söz açılıb, AzTV-nin Tehranda açılan yeni səfirlik binamızdan reportajına baxdım, xeyli tragikomik mənzərə idi. Aparıcı deyirdi ki, bina güllələkeçirməyən qapılarla, müdafiə sədləriylə qorunur. Həqiqətən, videodan İranın ağlamalı vəziyyəti aydın olurdu. Bircə o qalmışdı səfirliyin binası ətrafında su xəndəkləri qazılsın (açığı, küçədən video olmadığı üçün buna çox əmin deyiləm), hasarların üstünə raketdən müdafiə qurğuları qoyulsun, darvazalar minalansın, damda snayperlər, nə bilim, həyətdə tanklar, toplar... Sanki bu İranda səfirləri ayrı cür qorumaq mümkün deyildir. Başımıza gələnlər də göstərib. Ancaq neynirsən, əsas odur Tehranda vaxtlı-vaxtında Zəngəzur haqda zart-zurt edilsin. Əsas odur Orta Doğuda vaxtaşırı qarışıqlıq salınsın, uşaqlar ölsün, evlər xaraba qalsın.

Hə, bir də gəlinlərin açıq qalan kəkillərinə dövlət nəzarəti məsələsi var, onu yadımızdan çıxarmayaq. Əsas mövzulardan biri odur. Hərdən mənə elə gəlir ki, İran Zəngəzur dəhlizinə qadınların saçları gözüylə baxır - açılsa, haram imiş. Bir az poetik alındı, əlbəttə. Qayıdaq, necə deyərlər, "öz qoyunlarımızın yanına".

Bu arada, fürsətdən və təntənəli bayramdan istifadə edərək bir suala da aydınlıq gətirilməsinin mənası ortaya çıxır: Azərbaycan Kinematoqrafçılar İttifaqının keçmiş sədri Şəfiqə Məmmədova kabinet, maşın və dövlət telefonunu təhvil verdimi. Çünki keçən ay xəbər yayıldı, sən demə Şəfiqə xanım hələ də kürsüdən qopmayıbmış, təzə sədr Rasim Balayev isə, yalan olmasın, ortalıqda qalıbmış. Təklif edirəm bu temada da kino çəkilsin: aslanla güləşirsən, dərini soyurlar sağ qalırsan, ancaq kabinet və maşın uğrunda davada məğlub olursan. Hələ filmin axırında nazirliyin kino idarəsinin müdiri Orxan müəllim çaparaq kadra girsin və desin ki, sübut elə görək sən həqiqətən Beyrəksənmi, nə bilək, bəlkə Yalıncıqsan.

Vallah da. Qarışıq dünyada yaşayırıq. Süni intellekt hər şeyi montaj edə-edə zibilini çıxarıb. Adam bəzən səhərlər üz-gözünü yuyandan sonra güzgüyə şübhə ilə baxır: "Bu mənəmmi, mən deyiləmmi?"

Prinsipcə, şair bunu hələ neçə yüz illər öncə yazmışdır: "Məni sorma mənə, məndə deyiləm, Bir mən vardır məndə məndən içəri. Sənin eşqin məni məndən alıbdır, Nə şirin dərd bu dərmandan içəri".

Hərdən belə şeirlərdən verin uşaqlarınız oxusun, ləzzət aparsınlar.



# Haniyəyə sui-qəsd ətrafında müəmmalar artır

## "HƏMAS öz içində iki yerə bölünmüşdü - bir tərəfdə Türkiyə-Qətər dəstəkli İsmayıl Haniyə, digər tərəfdə İran dəstəkli Xalid Məşal..."

**HƏMAS lideri, hərəkatın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin iyulun 31-nə keçən gecə Tehranda qaldığı iqamətgahda qətlə yetirilməsi ətrafında gərginlik davam etməkdədir. Tehranda HƏMAS-ın Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin cənazəsi ilə vida mərasimi olub. Haniyənin nəşi Qətərə aparılacaq və avqustun 2-də Dohada dəfn olunacaq.**

Ekspertlər Haniyənin qətlinin onsuz da gərginlik hökm sürən Yaxın Şərqdə qarşıdurma vəziyyətini artıracağını proqnozlaşdırırlar.

**Rusiyalı politoloq, Yaxın Şərq ölkələrinin problemləri üzrə ekspert Stanislav Tarasov** əmindir ki, Haniyənin öldürülməsi Yaxın Şərqdə siyasi vəziyyəti gərginləşdirəcək. Analitik Lenta.ru ilə söhbətində mümkün nəticələri təsvir edib və bildirib ki, baş verənlər İran üçün çağırışdır: "Çünki bu ölkənin ərazisində HƏMAS liderlərindən birini öldürməklə İsrail öz kəşfiyyatının imkanlarını nümayiş etdirib. Bundan əlavə, bu, İrana hədəflənmiş zərbədir. Çünki İsrail adətən yaraqlıları və ya HƏMAS, Livanın şiə hərəkatı Hizbullah və İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) nümayəndələrini neytral ölkələrin ərazisində məhv edir". "Qətl böyük siyasi rezonansa səbəb olacaq və Yaxın Şərqdə, xüsusən də İsrail-İran münasibətlərində vəziyyətin daha da gərginləşməsinə töhfə verəcək. Şübhəsiz ki, reaksiya mənfi olacaq, tərəflər arasında qarşılıqlı siyasi ittihamların dərəcəsi artacaq", - Tarasov əlavə edib.

**Politoloq bu fonda Hizbullahla İsrail arasında silahlı qarşıdurmanın başlayacağını çətin hesab etsə də, hədəfli zərbələrin tezliyinin artacağını istisna etməyib. Onun fikrincə, münaqişənin yeni regional müharibəyə çevrilməsi şübhəlidir:** "Çünki bu əməliyyat ABŞ tərəfindən dəstəklənmir və onların dəstəyi olmadan İsrail həm HƏMAS, həm də Hizbullahla eyni anda döyüşə tab gətirə bilməyəcək".

"İranın özünə gəlincə, bu, ilk növbədə, ruhani lider Ayətullah Seyid Əli Xamenei və yeni prezident Məsud Pezeşkian tərəfindən səsləndirilən İranın xarici siyasətinin yeni konsepsiyasının mövqeyinə zərbədir. Yeni rəhbərlik Qərbə münasibətləri normallaşdırmağa çağırış etdi və qonşu dövlətlərlə münasibətlərin normallaşdırılması ikinci sıraya qoyuldu. Yəni ilk növbədə təkcə coğrafi baxımdan qonşu olan ərəb ölkələri deyil, həm də Çin, Rusiya və s. nəzərdə tutulur. Bu vəziyyətdə Qərb istiqamətində 180 dərəcə dönüş İran üçün indi qeyri-mümkündür. Bu, şübhəsiz ki, bir çağırışdır, lakin bütün əlamətlərə görə genişmiqyaslı regional müharibəyə səbəb olmayacaq. Əksinə, regionda siyasi vəziyyəti gərginləşdirəcək bir faktdır", - deyə politoloq fikrini yekunlaşdırıb.

**Politoloq Zərdüşt Əlizadə Konkter.az-a açıqlamasında Haniyənin ölümünün təsadüf olmadığını qeyd etdi:** "Baxın, hazırda İranda baş verən qətl hadisəsinin arxasında İsrail dayanır. Aydındır ki, adıçəkilən ölkə kəşfiyyatı tərəfindən HƏMAS rəhbərinə qarşı əməliyyat təşkil olunub. İstər eks-prezident İbrahim Rəisi, istərsə də İsmayıl Haniyə ölkənin ali rəhbəri Əli Xameneiyə yaxınlığı ilə tanınırdı. İndi təsəvvür edin ki, İran onları qoruya bilmədi. Düzdür, İran siyasətindən xəbəri olmayan bəzi insanlar iddia edir ki, Rəisi və Haniyə kimi şəxslər hakimiyyət qüvvələri tərəfindən məhv edilib. Olduqca absurd yanaşmadır. İran indiki düzənini çətinliklə qurub. İstəməz ki, kimsə bu quruluşu dağıtsın. Baş verən hadisələrin bir səbəbi var: İran kadr seçərkən bacarığa yox, sadiqliyə üstünlük verir. Ona görə də bəzi sahələrdə çatışmazlıqlara rast gəlinir. İsrail və digər ölkələrin kəşfiyyatı qonşu dövlət ərazisində rahatlıqla hərəkət edə bilirlər. Hətta onların məxfi sənədləri ABŞ və başqa ölkələr tərəfindən ələ keçirilib. Qeyd etdiyim kimi, baş verən bütün məsələlərin ardında düzgün olmayan kadr seçimləri dayanır".

**Z.Əlizadə iki ölkə arasında baş verə biləcək mümkün müharibə ehtimalından da danışdı:** "İran çalışır ki, İsrail genişmiqyaslı müharibəyə başlamasın. Çünki güclər nisbəti onların xeyrinə deyil. Düzdür, hərbi əməliyyatlar başlasa, İsrail və ABŞ ciddi ziyan görə bilər, amma bunun qarşılığında İran viran qalacaq. Hər təxribatdan sonra Əli Xamenei "vur" əmri verir. Lakin əksər hallarda bunun nəticəsi olmur. Bu kimi ifadələrin hər biri yerli publikanı sakitləşdirmək üçündür. Qasım Süleymaninin ölümündən sonra ciddi nə baş verdi? Dediyim kimi, hakimiyyət nümayəndələri özlərini elə göstərmək istəyir ki, əhali onların hər bir addımını zəfər kimi qəbul etsin".

"HƏMAS öz içində 2 yerə bölünmüşdü: Bir tərəfdə Türkiyə-Qətər dəstəkli İsmayıl Haniyə, digər tərəfdə İran dəstəkli Xalid Məşal. Haniyə təşkilatın siyasi-diplomatik, Məşal isə hərbi rəhbəri idi. İsmayıl Haniyə İsraillə danışıqların tərəfdarı idi, Xalid Məşal isə danışıqları rədd edir və SEPAH, Hizbullah kimi qüvvələrlə birlikdə İsrailə qarşı müharibə aparmağı irəli sürürdü. Məşalın təşkilat içindəki ən böyük dəstəyi İranın Qüds Qüvvələrinin komandanı Qasım Süleymani idi. Süleymani ABŞ tərəfindən aradan götürdükdən sonra Məşal qrupunun təşkilat içərisindəki mövqeləri xeyli zəifləmişdi".

Politoloq Zeynal Əmrəliyev HƏMAS hərəkatının Siyasi Bürosunun rəhbəri İsmayıl Haniyənin Tehranda qətlə yetirilməsi hadisəsini şərh edərkən deyib. Politoloq deyib ki, HƏMAS-da ağırlığı əla alan İsmayıl Haniyə dərhal Türkiyənin vasitəsi ilə İsraillə danışıqlara başlayıb: "Ancaq Məşal qrupu İsrailə basqın edərək Netanyahunun əlinə oynadı və Qəzzada dəhşətli müharibə başladı. Çin bu yaxınlarda dövriyyə girdi, Haniyə ilə danışıqlar apararaq fələstinli qrupları birləşdirir. Bu isə illərdir İordan çayının qərb sahilində məskən salmış və korrupsiyaya bulaşmış Mahmud Abbas rejimi üçün böyük təhlükə demək idi. İsrail Çinin fələstinli qrupları birləşdirməsini qıcıqla qarşıladı və HƏMAS rəhbərliyində sülh istəyən siyasi rəhbərin oturmasını istəmirdi. Çünki İsrailin məqsədi HƏMAS-ın tam hərbi radikal-dini təşkilata çevrilməsi və Qərbdən HƏMAS-a qarşı maksimum dəstək əldə etmək idi. Uzun sözün qısası, İsmayıl Haniyə HƏMAS daxilindəki oyunlara və Çinin fələstinli qrupları barışdırmaq siyasətinə qurban getdi".

**Politoloqun fikrincə, İsrail Haniyəni aradan götürməklə ən böyük mesajı Çinə vermiş oldu:** "Bu hadisə İranda SEPAH və mühafizəkar camiyənin and içən yeni prezident Məsud Pezeşkian üzərindəki ilk böyük qələbəsi idi. ABŞ-la yaxınlaşmaq siyasəti aparacaq Məsud Pezeşkian-Məhəmməd Cavad Zərif cütlüyü işə başlamadan uğursuzluğa düçar oldu. Fələstin mübarizəsinə göstərilən bütün yardımlar İsmayıl Haniyənin əlində cəmləşmişdi. İllərdir Məşal və qrupu bu pulu ələ keçirmək üçün mübarizə aparırdı. Artıq məqsədlərinə çatdılar. Xalid Məşal İrandakı bəzi qüvvələr və İsrailin ortaq dəstəyi ilə HƏMAS-ın vahid lideri oldu. Korrupsiya içində batan Mahmud Abbas isə ən böyük siyasi rəqibindən xilas oldu. İsrailin məqsədi HƏMAS liderini öldürmək və Yaxın Şərqdə sülh etmək olsaydı məntiqlə HƏMAS-ın siyasi yox, hərbi liderini aradan götürərdi. Deməli ki, Netanyahu əksini arzulayır. Dünən baş verən hadisə ABŞ-dakı demokratlara, Çinə, Türkiyəyə, Qətərə, Misirə və İranda yeni hakimiyyətə başlamış Pezeşkian hökumətinə çox ciddi zərbə oldu".

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

# Protokol sıxlığı, yoxsa İranın Bakıya "bir gün fərqlə" mesajı

## Rəsmi Tehranın xarici siyasətində islahatlar olacaqmı?; cənub qonşumuzun Azərbaycanla isti münasibətlərinə mane olan qüvvələr kimlərdir; **deputat:** "Son vaxtlar məhz Azərbaycanın təkidi ilə münasibətlərdə müəyyən istiləşmə gözə çarpsa da..."

**İyulun 31-də İranın yeni prezidenti Məsud Pezeşkian onun andiçmə mərasimi üçün Tehrana gələn Azərbaycanın baş naziri Əli Əsədovu qəbul edib. Azərbaycan Nazirlər Kabinetinin mətbuat xidmətinin verdiyi məlumata görə, Əsədov İran prezidentinə bu ilin noyabrında Bakıda keçiriləcək COP29 iqlim konfransında iştirak etmək üçün Azərbaycan Prezidenti İlham Əliyevin dəvətini çatdırıb. Görüşdə Azərbaycanla İran arasında dostluq və qardaşlıq əlaqələrinin müxtəlif sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub.**

Qeyd edək ki, Pezeşkian və İranın ruhani lideri Əli Xamenei Ermənistanın baş naziri Nikol Paşinyanı qəbul edib. Yalnız bir gün sonra İran prezidenti Əli Əsədovla görüşüb, Xamenei ilə isə ümumiyyətlə görüş olduğu haqda xəbər yayılmayıb. "Turan" agentliyi yazır ki, İranın bu cür yanaşması Bakıda mənfi reaksiyaya səbəb olub. Maraqlıdır, rəsmi Tehranın bu cür yanaşması protokol sıxlığı, yoxsa hələ də soyuq münasibətin göstəricisidir?

**Deputat Arzu Nağıyev** "Yeni Müsavat"a açıqlamasında əvvəlcə qeyd etdi ki, Məsud Pezeşkian İran prezidenti seçiləndə rəsmi Tehranın xarici siyasətində islahatlara gediləcəyi ilə bağlı bəzilərinin ümidləri və proqnozları var idi, amma bunlar özünü doğrultmadı: "İrəli sürülən təhlillərin nəticəsi göstərirdi ki, xarici siyasət birbaşa dini lider Əli Xamenei və İslam İnqilabı Keşikçiləri Korpusu tərəfindən ayırd edilir və tənzimlənir. Pezeşkian öz seçki platformasında Qərb dövlətləri ilə münasibətlərdə islahatlar aparılacağını qeyd etsə də, Əli Xamnei əsasən qonşu dövlətlərlə münasibətə üstünlük veriləcəyini bəyan etdi. Qonşu dövlətlərin də ən mühüm strateji əhəmiyyətə malik olanı, eyni zamanda müstəqil daxili və xarici siyasətə malik olanı Azərbaycandır. Bu gün Azərbaycan istər Cənubi Qafqazda, istərsə də regionda iqtisadi, siyasi, hərbi baxımdan öz müstəqilliyini nümayiş etdirməklə prinsipial mövqeyini qoruyur. Təbii ki, bunu İran da başa düşür və bu mövqe heç də onu qane etmir". **A.Nağıyev bildirdi ki, son vaxtlar məhz Azərbaycanın təkidi ilə münasibətlərdə müəyyən istiləşmə gözə çarpsa da, İran bunu heç də birmənalı qarşılamır:** "Azərbaycan qonşuluq siyasətində sülhün bərqərar olmasına, bu işlərdə qonşuların da bu siyasətə dəstək olmasına çalışsa da, İran Ermənistanın havadarı rolunda çıxış etməkdən əl çəkmir. Baxmayaraq ki, Qərb Ermənistan vasitəsilə İranın sərhədləri yaxınlığında NATO qoşunlarının və digərlərinin silah-sursatının cəmlənməsini görür və buna biganəlik nümayiş etdirir. Paralel olaraq isə beynəlxalq dərəcəli əhəmiyyəti olan Zəngəzur dəhlizinin yaradılmasının əleyhinə siyasət yürüdür. Aydındır ki, bu, bir bəhanədir, çünki son vaxtlar Azərbaycanın istər BRİKS, istər ŞƏT üzvü olan



dövlətlərlə apardığı müstəqil siyasət İranı qane edə bilməz, Azərbaycanın beynəlxalq səviyyəli bir aktora çevrilməsi onu qane edə bilməz və bizim gücümüzün, söz sahibi olmamızın ancaq əleyhinə siyasət apara bilər. Bu da alınan deyil. Çünki bu, tək İrandan, Ermənistandan və havadarlardan asılı olmayan məsələlərdir". **Deputat qeyd etdi ki, HƏMAS-ın siyasi liderinin məhz İranda qətlə yetirilməsi İranın siyasi imicinə, təhlükəsizlik siyasətinə ciddi zərbə vurdu:** "Bunu yenidən bərpa etmək, nüfuz artırmaq üçün təbii ki, İran mühüm addımlar atmalıdır, bu adımın da ən mühümlərindən biri qonşuluq siyasətində islahatlar aparmaq, bitərəfli mövqedən əl çəkməkdir. Bir daha qeyd etmək yerinə düşərdi ki, Azərbaycanla siyasətdə daha ciddi və dostluq siyasətinə üstünlük verilməlidir". **A.Nağıyev vurğuladı ki, andiçmə mərasimi üçün Tehrana gələn Azərbaycanın baş naziri Əli Əsədovla olan görüş də ilk növbədə İran üçün daha mühümdür:** "İran prezidentinə bu ilin noyabrında Bakıda keçiriləcək COP29 iqlim konfransında iştirak etmək üçün Azərbaycan Prezidenti İlham Əliyevin dəvətinin çatdırılması da İranın bu mühüm beynəlxalq tədbirdə iştirak etməklə öz xarici siyasətində çox mühüm addımlar atmağa yardım ola bilər. Bir sözlə, İran Azərbaycanla öz münasibətlərini tək protokol xatirinə deyil, ciddi bir regional dövlətlə münasibətlər rakursundan baxışla qurmalıdır. İlk növbədə bu, ona daha çox lazımdır..."

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, rəsmi Bakı Tehranla münasibətlərin istiləşməsində, ortaq layihələrin reallaşmasında və tərəfdaşlıq münasibətlərində maraqlıdır:** "Azərbaycan türkü və islahatçı Məsud Pezeşkianın prezident seçilməsi iki ölkə arasında münasibətlərin normallaşacağına ümidlər yaradıb. Ancaq İranın mühafizəkar dairələri bu proseslərdə Məsud Pezeşkiana mane olmağa çalışacaqlar. Bunu son iki misalda göstərmək olar. Birincisi, İranın ali dini prezidentin andiçmə mərasiminə qatılan Ermənistanın baş naziri Nikol Paşinyanı qəbul etdi, ancaq eyni səbəblə Tehrana gedən Azərbaycanın baş naziri Əli Əsədovla görüşmədi. Bunu qonaqların çoxluğu ilə izah etmək mümkün deyil. Prezidentin andiçmə mərasiminə prezident və baş nazir vəzifəsində çox qonaq qatılmamışdı. İkincisi, İranın ali dini lideri Nikol Paşinyanla görüşdə Azərbaycanın maraqlarına toxunan fikirlər səsləndirdi. Xameneinin "biz Zəngəzur dəhlizinin əleyhinəyik" fikri yersiz idi. Bu mövzunun İrana dəxli yoxdur. Nikol Paşinyan özü bu mövzu haqqında danışmadığı halda, İranın ali dini liderinin Zəngəzur dəhlizi əleyhinə çıxışı Ermənistanın baş nazirinə xəbərdarlıqdır ki, o, bu məsələdə Azərbaycanla razılaşmasın". **E.Şahinoğlu diqqətçəkən başqa bir məqamdan da bəhs etdi:** "Maraqlıdır ki, Nikol Paşinyanla görüşdə İranın yeni prezidenti Məsud Pezeşkian bu mövzuya toxunmadı. Bununla İranın ali dini lideri öz ölkəsinin prezidentinə də mesaj göndərdi ki, o, Azərbaycanla isti münasibətlərə üstünlük verməsin. Pezeşkian ali dini liderin bu "tövsiyəsini" yerinə yetirəcəkmi? Bunu zaman göstərəcək. Pezeşkian ali dini liderin müəyyənləşdirdiyi xarici siyasətə üstünlük verəcəksə, İran-Azərbaycan münasibətlərində müsbət dəyişiklik gözləmək mümkün olmayacaq".

"İran-Ermənistan "müttəfiqliyinin" siyasi mənzərəsi ciddi suallar yaradır. Burada ziddiyyətli siyasi məqamlar var ki, bunun həm tarixi aspektləri, həm çağdaş siyasi mənzərəsi, həm də sosioloji tərəfləri var. İran Ermənistanın güclü formada mövcudluğunun tərəfdarıdır. Baxmayaraq ki, Ermənistanın özəlliklə son 5 ildəki xarici siyasət vektoru daban-dabana rəsmi Tehranın mövqeyi ilə ziddir, yenə də İran Ermənistandan hər an yararlanacaq baxışlara malikdir".

Bu fikirlər isə **STM-in sektor müdiri, politoloq Tural İsmayılova** məxsusdur. Ekspert qeyd etdi ki, İran bu gün dostluq mesajları verdiyi Ermənistanın Qərb kəşfiyyatının plastdarmı halında olmağına "göz yumur". "Azərbaycanın uğurları fonunda saxta "panton körpüləri" atanlar İrəvandakı sorosçu idarəetmənin regionu Qərb casuslarına açmağına etiraz etmir. Bağlı qapılar arxasında bəlkə də İran Ermənistana hansısa etiraz notları çatdıra bilər, amma reallıq odur ki, İran diplomatları, öz sosial media hesablarında daim münasibətləri gərginləşdirməyə çalışan SEPAH və onların media qanadı da Ermənistana "gözün ustündə qaşın var" deyə bilmir", T.İsmayilov ardınca vurğuladı.

**Bununla belə, o qeyd etdi ki, İranın Azərbaycanla münasibətlərində son dövrlər müsbət tendensiyalar müşahidə edilir:** "Azərbaycan səfirliyi yeni ərazidə fəaliyyət göstərir, Azərbaycan Prezidenti İlham Əliyev Məsud Pezeşkianı seçkilərdəki qələbəsi münasibətilə təbrik edərək Azərbaycana səfərə dəvət edib. Qarşılıqlı formada diplomatik kanallar müsbət qonşuluq mesajları verilir. O da unudulmamalıdır ki, İranın Azərbaycanla münasibətlərində yaranan soyuqluğun səbəbkarı da heç vaxt Azərbaycan olmayıb. Azərbaycan heç vaxt hansısa ölkələrin onun ərazisindən qonşularına qarşı istifadə etməyib. Bu gün Ermənistan ərazilərində ABŞ təlimlər keçir, Aİ missiyası adı altında Markus Ritterin "mənşəyi bilinməyən" qrupu var, amma İran hələ də Ermənistanı sığallamaqla məşğuldur". **Ancaq ekspert əlavə etdi ki, İranda ayrı-ayrı qüvvələr Azərbaycana qarşı fəaliyyətlərini dayandırmrlar:** "Anlaşılan deyil ki, İran xoş niyyət göstərdiyi halda, Ermənistandakı səfiri Mehdi Sobhani niyə ermənidən çox ermənilik edir? İran İslam Respublikasının Ermənistandakı səfiri Mehdi Sobhani Tehran və İrəvan müttəfiqliyini, deyəsən, anti-Azərbaycan "bəyanatları ilə" sübut etmək istəyir. Bütün bunlar ilə yanaşı İranın içərisindəki bəlli dairələr Azərbaycanla münasibətlər ilə bağlı konkret addımlar ata bilmirlər. Verdikləri açıqlamalar, ortaya qoyduqları mövqelər Azərbaycanla münasibətlərin zədələnməsinə səbəb olur". **T.İsmayılov həmçinin əlavə etdi ki, İranın Zəngəzur dəhlizi məsələsindəki anlaşılmaz mövqeyi hələ də davam edir:** "Zəngəzur dəhlizi hansısa bir formada İranın maraqlarını təhdid etməməlidir. Düşünürəm ki, İran burada prosesə obyektiv mövqedən yanaşmır. Daha çox ideoloji və məzhəbçi baxışla prosesi əngəlləməyə çalışır. İranın Zəngəzur dəhlizi məsələsində Ermənistanı qızışdırmağı və prosesin qarşısını alması təəssüfləndirici məqamdır". **Ekspertə görə, bütün narahatedici məqamlara baxmayaraq, Paşinyanın İranda irəli sürdüyü təşəbbüslərə rəsmi Tehranın reaksiyası ona tərs sillə oldu:** "İranda Paşinyanın özündən uydurduğu "sülh kəsişməsi" layihəsi lazımlı diqqəti görmədi ki, bu da faktdır. İranda Paşinyanın təhlükəli oyunlarının fərqindədirlər. İran Rusiya kimi Ermənistanla dərin konfrantasiya situasiyasına daxil olmur hələ ki. Həm də diqqət edilməli 2 məqam var: birincisi, Ermənistan iqtidarı İranla münasibətlərdə Rusiyaya yanaşmasındakı kəskin ritorikadan istifadə etmir. Daha çox İrana məddahlanmaq müşahidə edilir. İkincisi, Ermənistan hər vəchlə Qərblə əməkdaşlığının guya İrana qarşı olmadığını bildirir, amma əslində İrana qarşı fəaliyyət üçün Ermənistan əraziləri sorosçu hökumət tərəfindən çoxdan Qərbə peşkəş edilib".

❑ **E.PAŞASOY, "Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

# Azərbaycanın “kurortlar naziri”ni kim əvəz edəcək?

## Hazırda Naxçıvanda olan Səttar Möhbalıyev ayın sonunda istefaya gedir, onun yerinə namizəd isə...

**Sentyabrın 1-də keçiriləcək parlament seçkilərində növbəti dəfə namizədliyi irəli sürülən qocaman deputatlardan biri də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyevdir. Xəbər verildiyi kimi, beşinci dəfə deputat olmağa hazırlaşan Möhbalıyev yenə 3 saylı Babək-Kəngərli-Naxçıvan seçki dairəsi üzrə namizəddir. Bu ilin oktyabrında 69 yaşını tamamlayacaq S.Möhbalıyevlə 3 saylı Babək-Kəngərli-Naxçıvan seçki dairəsində mübarizə aparacaq ciddi rəqib də yoxdur.**

AHİK İcraiyyə Komitəsi bugünlərdə avqustun 26-da növbədənkənar qurultay keçirilməsi barədə qərar qəbul edib. Səttar Möhbalıyev növbədənkənar qurultayda istefa verəcək. Onun yenidən AHİK sədrliyinə namizədliyi irəli sürülməyəcək. Səttar Möhbalıyev ilk dəfə 1993-cü ilin 6 fevral tarixində AHİK-in sədri seçilib və artıq 31 ildir eyni vəzifədə çalışır.

Məlumatlara görə, Səttar Möhbalıyev AHİK sədri postundan könüllü olaraq istefa verməyə, yola parlament seçkilərində iştirakla davam etməyə qərar verib. AHİK sədrinin köməkçisi bildirib ki, Səttar Möhbalıyevin səhhətində problem olduğu üçün sədrliyə namizədliyini verməyəcək: “İyun ayında ürəyindən əməliyyat olundu, buna görə də bu dəfə sədrlik postuna iddia etməyəcək. Hazırda Naxçıvandadır”.

Bitərəf Səttar Möhbalıyev 2000-ci ildən indiyə kimi deputat mandatı daşıyır. O, 2-ci, 3-cü, 4-cü, 5-ci və 6-cı çağırış Milli Məclisin üzvü olub. İqtisad elmləri doktoru, professordur. “Şöhrət” ordeni və “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilib. Milli Məclisin fəxri medalına və “Parlament” medalına layiq görülüb.



AHİK-nın tərkibinə “Kurort” Qapalı Səhmdar Cəmiyyəti, Azərbaycan Respublikası “Turizm və Ekskursiyalar Şurası”, “Azərbkolxozlararasısağlamlıq” Respublika Birliyi, Əmək və Sosial Münasibətlər Akademiyası və özündə 9 idman cəmiyyətini birləşdirən Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyi daxildir. Təsadüfi deyil ki, Möhbalıyev kuluarlarda “kurortlar naziri” kimi tanınır.

Bəs AHİK-in yeni sədri kim olacaq?

Azpolitika.info-nun əldə etdiyi məlumata görə, bu posta hazırda iqtisadiyyat nazirinin müavini vəzifəsini tutan 6 şəxsdən biri gətirilə bilər. Qeyd edək ki, iqtisadiyyat naziri Mikayıl Cabbarovun 6 müavini var. Bunlar Sahib Məmmədov, Elnur Əliyev (birinci müavin), Sahib Ələkbərov, Rövnəq Abdullayev, Səməd Bəşirli və Anar Axundovdur. Bu seçimin nə ilə əlaqədar olduğu barədə nəsə söyləmək çətin olsa da, məhz bu 6 müavindən birinin Möhbalıyevin 31 il oturduğu AHİK sədri postuna gətiriləcəyi gözlənilir.

Bəs bu postun əhəmiyyəti nədən ibarətdir? Qurum hansı işlərlə məşğuldur?

Qeyd edək ki, həmkarlar ittifaqları istehsal və ya qeyri-istehsal sahələrində çalışan işçilərin, habelə pensiyaçıların və təhsil alan şəxslərin əmək, sosial, iqtisadi hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün iş yeri, peşələr, sahələr üzrə və respublika səviyyəsində fərdi üzvlük prinsipi əsasında könüllü birləşdiyi, nizamnamələri və bu qanun əsasında fəaliyyət göstərən müstəqil ictimai, qeyri-siyasi təşkilatdır. Qanunda “Həmkarlar ittifaqının ilk təşkilatı” dedikdə, istehsal və ya qeyri-istehsal sahələrində bilavasitə iş yeri üzrə çalışan işçilərin, habelə pensiyaçıların, təhsil alan şəxslərin birləşib təsis etdikləri həmkarlar ittifaqı təşkilatı, “peşələr, sahələr üzrə respublika və ya ərazi həmkarlar ittifaqları birlikləri” dedikdə, həmkarlar ittifaqı ilk təşkilatlarının peşələr, sahələr üzrə birləşib təsis etdikləri respublika və ya ərazi həmkarlar ittifaqı birlikləri başa düşülür.

**Mövzu ilə bağlı ekspert Natiq Cəfərli “Yeni Müsavat”a danışıb:** “Azərbaycanda AHİK-in yeni sədrinin kim olacağını öncədən heç kəs bilməz. Amma maraqlı cəhət ondan ibarətdir ki, ölkəmizdə həmkarlar təşkilatı çox təəssüf ki, "ölü doğulmuş orqan" kimi fəaliyyət göstərir.

Əslində isə dünyanın hər yerində həmkarlar təşkilatları sözün ən yaxşı mənasında hökumətə müxalif olaraq fəaliyyət göstərir. Yəni hökumətdən işçi hüquqları ilə bağlı tələblər edir, maaşların artırılması üçün danışıqlar aparırlar. Həmçinin hökumətlə danışıqlar aparıb tələb edirlər ki, işçilərin iş şəraitinin yaxşılaşdırılması üçün tədbirlər görülsün.

Azərbaycanda isə həmkarlar təşkilatının nə vaxtsa hökumətlə danışıqlar aparıb, tələblər irəli sürdüyü görülübmü? Əlbəttə ki, xeyir. Ona görə də əsas məsələ kiminsə quruma sədr seçilməsi deyil, əsas məsələ həmkarlar təşkilatının öz əsl fəaliyyətinə, görməli olduğu işlərə geri dönməsi, işçilərin hüquqlarının qorunması ilə bağlı fəaliyyət göstərməsidir. Kimisə sanatoriyaya, kurorta göndərmək həmkarlar təşkilatının işi deyil. Bu, sovetdənqalma yanaşmadır. Belə ki, sovetin həmkarlar təşkilatı tam formal idi. Çünki Kommunist Partiyası deyirdi ki, “biz hər şeyi həll edirik, ona görə də həmkarlar təşkilatına ehtiyac yoxdur”.

Beləliklə, qeyd etdiyim kimi, burada birinci məsələ həmkarlar ittifaqının öz əsl fəaliyyəti ilə məşğul olmasıdır, sədrin kim olacağı isə ikinci məsələdir".

**❑ Xalidə GƏRAY, “Yeni Müsavat”**

# “Atlant”ın sahibi məhkəmədə dindiriləcək

## O, 14 milyon manat dələduzluqda ittiham olunan kürəkəninin cinayət işi üzrə prosesdə nələr deyəcək?

**Xəbər verdiyimiz kimi, “Atlant” İstirahət Mərkəzinin sahibi Tahir Qədəşov Bakı Ağır Cinayətlər Məhkəməsinə çağırılıb. O, 171 Azərbaycan vətəndaşına qarşı 14 milyon manat dələduzluqda ittiham olunan kürəkəni və şəriki Nofəl Hacıyevin cinayət işi üzrə məhkəmə prosesində şahid qismində ifadə verəcək.**

Musavat.com xəbər verir ki, Nofəl Hacıyevlə yanaşı, hakim qarşısına Talış Məhəmmədov da çıxarılıb.

“Təbriz” MTK-nın icraçı direktoru olan Talış Məhəmmədov vəzifə səlahiyyətlərini aşma və sənədləri saxtalaşdırmada ittiham olunur. Hazırda prosesdə şahidlərin dindirilməsi mərhələsidir. Nofəl Hacıyevin qayınatası Tahir Qədəşov ələ keçirilmiş 14 milyon manatla bağlı prokurorun, məhkəmənin, təqsirləndirilən və zərərçəkənlərin, onların vəkillərinin suallarını cavablandırmalı olacaq.

Xatırladaq ki, ötən prosesdə iş üzrə zərərçəkənlər Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Şəlalə Həsənovaya ərizə ilə müraciət ediblər.



Müraciət müəllifləri hakimə yazıb bildiriblər ki, “Təbriz” MTK ilə mənzil alışına dair müqavilə imzalayıb, pul ödəyiblər və müvafiq olaraq MTK tərəfindən onlara maliyyə arayışı verilib. Buna baxmayaraq, müqavilələr üzrə göstərilən mənzillərin sonradan digər şəxslərə satıldığı üzə çıxıb:

“Sonradan bizə məlum olub ki, mənzillərin satılması ilə bağlı alınmış pullar Nabran qəsəbəsində yerləşən "Atlant" İstirahət Mərkəzinin tikinti və abadlaşdırılmasında yaranmış öhdəliklərə yönəldilib. Eyni zamanda “Atlant” İstirahət Mərkəzinin rəhbəri Qədəşov Tahir Ərzuman oğlu həm də “Təbriz” MTK-nın təsisçisidir. Bütün pulların “Atlant” İstirahət Mərkəzinə yönəldilməsinə baxmayaraq, istintaq orqanı Qədəşov Tahir Ərzuman oğlunu cinayət məsuliyyətinə cəlb etməyib, bunun nəticəsində istintaq birtərəfli qaydada aparılmaqla iş üzrə zərərçəkmişlərin pulu ödənilmir. Ona görə də Sizdən xahiş edirik ki, zərərçəkmişlərin pulunun ödənilməsi məqsədilə işdə təqsirli olan şəxsin əlbirlik faktı ilə bağlı məsuliyyətə cəlb edilməsindən ötrü Nofəl Hacıyevin barəsində olan cinayət işi Qədəşov Tahir Ərzuman oğlunun da onunla əlbirlik faktına ittiham verilməsindən ötrü əlavə ibtidai istintaqa qaytarılsın".

Qeyd edək ki, hazırda “Atlant” İstirahət Mərkəzinin sahiblərindən olan Tahir Qədəşovun kürəkəni Nofəl Hacıyev həbsdədir. O, 171 Azərbaycan vətəndaşına qarşı dələduzluqda ittiham olunur. İlkin məlumatlarda bildirilirdi ki, Nofəl Hacıyev “Təbriz” MTK-nın inşa etdiyi binalardan mənzilləri satsa da, sonradan mənzillər sahiblərinə verilməyib. İndi məlum olub ki, Nofəl Hacıyev həm “Təbriz” MTK-da, həm də “Atlant” Ailəvi İstirahət Mərkəzində qayınatası Tahir Qədəşovla şərikdir. Vətəndaşlardan “Təbriz” MTK üzərindən alınan pullar “Atlant” Ailəvi İstirahət Mərkəzinin tikinti və abadlaşdırılmasına yönəldilib. Belə bir halda şəriklərdən birinin həbsdə, digərinin azadlıqda qalması sual doğurur. Mənzillərinə sahib çıxa bilməyən vətəndaşlar bu baxımdan məhkəməyə müraciət ediblər. Xatırladaq ki, aparılan istintaqla “Təbriz” MTK üzərindən 171 vətəndaşdan 14 milyon manatdan artıq pul alındığı, lakin mənzillərin onlara təqdim edilmədiyi məlum olub. İstintaq zamanı MTK təsisçilərindən Nofəl Hacıyev vətəndaşlardan toplanılan 14 milyon manatın harada olması ilə bağlı suala cavab verməyib. Zərərçəkənlər isə “Atlant” İstirahət Mərkəzinin 40 faizinə şərik olan Nofəl Hacıyevin pulu qayınatası Tahir Qədəşovla birgə ələ keçirdiyini iddia edirlər. Musavat.com-a daxil olan məlumatda deyilir ki, hazırda iş üzrə məhkəmə prosesi keçirilir. Prosesdə zərərçəkənlər Nofəl Hacıyevlə yanaşı, Tahir Qədəşovun da həbsini tələb edirlər. Nofəl Hacıyev məhkəmədə verdiyi ifadəsində vətəndaşlardan aldığı 14 milyon manatdan artıq vəsaiti “Atlant” İstirahət Mərkəzində təmir-tikinti işlərinə yönəltdiyini deyib.

Bildirib ki, “Atlant”ın genişləndirilməsi ilə bağlı şəriki olan qayınatasının təkidi ilə “Təbriz” MTK-da vətəndaşlardan toplanan vəsaitləri istirahət mərkəzinə yönəldib. “Atlant” Ailəvi İstirahət Mərkəzi 2002-ci ildə Nabranda, Xəzər dənizinin sahillərində tikilib. İldən-ilə istirahət mərkəzinin ərazisi genişləndirilib.

Müstəqil qiymətləndiricilər “Atlant”ı hazırkı bazar qiymətləri ilə 80-100 milyon manat dəyərləndirirlər. Xatırladaq ki, ibtidai istintaq dövründə “Atlant” İstirahət Mərkəzinin üzərinə həbs qoyulub.

**❑ E.MƏMMƏDƏLİYEV, Musavat.com**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

# Şanxay Əməkdaşlıq Təşkilatına görə Türkiyəyə təzyiq

## Ekspert: "Qərbin bu məsələdə Ankaraya yol göstərməyə mənəvi haqqı yoxdur"

**Türkiyənin Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) daxil olması onun Aİ Gömrük İttifaqının üzvü kimi üzərinə götürdüyü öhdəliklərlə bir araya sığmaz. Bunu Senatın Xarici Əlaqələr Komitəsinin dinləmələrində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen deyib.**

Yada salaq ki, iyulun 11-də Ərdoğan Türkiyənin ŞƏT-ə üzv olmaq niyyətini açıqlayıb. Onun sözlərinə görə, ŞƏT-ə mümkün üzvlük NATO-ya alternativ deyil. Avropa İttifaqına gəlincə, Ərdoğan hələ bir müddət əvvəl bəyan etmişdi ki, ŞƏT-in sammitində iştirakı üçün Aİ-yə hesabat vermək niyyətində deyil. Ərdoğan xatırladıb ki, Aİ yarım əsrdən artıqdır ki, Türkiyənin öz sıralarına daxil olmasının əngəlləyir: "Avropa İttifaqı bizi 52 il saxlayacaq, ona yaxınlaşmağa imkan verməyəcək, sonra da soruşacaq: "Niyə bu ölkə ilə görüşdü, niyə başqa bir ölkə ilə görüşdü?" Mən danışıqlar aparacağam. Biz bu danışıqları apararaq Avropa İttifaqı qarşısında hesabat verməli deyilik".



Qeyd edək ki, bu il iyulun 12-də Vaşinqtonda keçirdiyi mətbuat konfransında da Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan Ankaranın ŞƏT-ə üzv olmaq məqsədini açıqlayıb. Türkiyə prezidentinin sözlərinə görə, o, artıq bu məsələni Rusiya və Qazaxıstan prezidentləri Vladimir Putin və Qasım-Jomart Tokayev, eləcə də Çin rəhbəri Si Cinpinlə müzakirə edib. Bundan əvvəl Türkiyənin xarici işlər naziri Hakan Fidan ŞƏT-i Türkiyənin 1999-cu ildən namizəd olmağa çalışdığı Avropa İttifaqına "yaxşı alternativ" adlandırıb.

Xatırladaq ki, 2001-ci il iyunun 15-də Çin, Rusiya, Qazaxıstan, Tacikistan, Qırğızıstan və Özbəkistan liderləri tərəfindən təsis edilmiş və beynəlxalq status daşıyan ŞƏT-in hazırda 9 tamhüquqlu üzv ölkəsi var. 2017-ci ildə quruma Hindistan və Pakistan, 2022-ci ildə İran tamhüquqlu üzv kimi qəbul edilib. ŞƏT Avrasiya ərazisinin 60%-ni özündə birləşdirir. Təşkilat hərbi blok (məsələn, NATO kimi) və ya açıq müntəzəm təhlükəsizlik konfransı (məsələn, ARF kimi) deyil, fərqli mövqe tutur. Belə ki, təşkilatın əsas vəzifələri iştirakçı dövlətləri birləşdirən geniş ərazidə sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, terrorizm, separatizm, ekstremizm, narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizə, iqtisadi əməkdaşlığın inkişafı, enerji tərəfdaşlığı, elmi və mədəni qarşılıqlı əlaqələrin inkişaf etdirilməsidir.

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifovun fikrincə, Qərbin bu məsələdə Türkiyəyə yol göstərmək, məsləhət verməyə mənəvi haqqı yoxdur:** "Türkiyə on illər uzunu Avropa Birliyinin qapısını döydü və gerçəkdən bu ittifaqa üzv olmağa çalışdı. Lakin Aİ-nın Fransa və Almaniya kimi dayaq ölkələrinin çirkin oyunları sonda Türkiyəni bu birliyə yaxın buraxmadı. Türkiyənin bu birliyə buraxılmamasının bəlli səbəbləri var. AB bu səbəbləri, sadəcə, açıqlaya bilmir. Səbəblər isə bunlardır: Avropa İttifaqına üzv ölkələrdə və xüsusilə də Almaniyada milyonlarla türk yaşayır. Türkiyənin bu ittifaqa üzvlüyü bir neçə il ərzində Avropadakı türklərin sayının bir neçə dəfə artması ilə nəticələnə bilərdi. Aİ-nin ən çox qorxduğu məsələlərdən biri bu idi. İkincisi, Aİ-yə üzv olan Türkiyə iqtisadiyyatının indikindən daha böyük sürətlə inkişaf etdirmək şansları yarana bilərdi. Çünki Aİ çərçivəsində iqtisadi müstəvidə fəaliyyət üçün çoxsaylı güzəştlər mövcuddur. Türkiyənin həmin güzəştlərdən istifadə etməsi o demək idi ki, o Avropa bazarında dominantlıq etmək şansına sahib çıxa bilərdi. Bir sözlə, NATO-nun ikinci ən güclü ordusuna sahib bir ölkənin Aİ üzvlüyünə qəbul edilməməsinin başlıca səbəbi türk qorxusu, türk xofu idi. Türkiyə Aİ-yə üzv olardısa, bu birliyin yanlış qərarlarının hamısının qarşısına sədd çəkən bir dövlət olacaqdı. Bütün bunlara görə də birliyin dayaq ölkələri Almaniya və Fransa on illər boyunca Türkiyənin AB-yə üzvlüyünə hər vəchlə əngəl törətdilər.

Türkiyə bunları görüncə, sonda öz seçimini etmək qərarı verdi. Avrasiya məkanının ən güclü birliyinə çevrilən Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmaq yolunu seçdi. Türkiyənin bu seçimi ABŞ və Aİ-ni ciddi narahat edir. Türkiyənin üzv olması ilə Avroasiya məkanında qüvvələr nisbəti ciddi şəkildə dəyişəcək. Yəni Çinin, Hindistanın, Pakistanın və Rusiyanın üzv olduğu bir birliyə qatılmaqla Türkiyə qüvvələr nisbətindəki tarazlığın tamamilə pozulmasına səbəb olacaq.

Hesab edirəm ki, Türkiyə doğru yoldadır. Əgər ABŞ başda olmaqla, Avropa Birliyi Türkiyənin ŞƏT-ə üzv olmasını istəmirlərsə, qoy onda Aİ-nin qapılarını Türkiyənin üzünə açsınlar və onu vaxtilə zərurət səbəbindən NATO-ya necə dərhal üzv qəbul etmişdilərsə, bu dəfə də eyni qaydada Avropa Birliyinə üzv qəbul etsinlər. Bunu edərlərsə, Türkiyə ŞƏT-ə üzv olmaq təşəbbüsündən geri çəkilə bilər..."

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov Türkiyənin əvvəlki Türkiyə olmadığını diqqətə çatdırdı:** "Türkiyənin hər hansı bir Avrasiya mərkəzli və ya qeyri-anqlosak qurumda iştirakı əlbəttə ki, Qərbi və onun oyunçularını narahat edir. Prezident Ərdoğan çox gözəl anlayır ki, Türkiyə NATO-dan başqa heç bir Qərb konfiqurasiyasına lazım deyil. NATO-ya da Türkiyənin hərbi gücü lazımdır. Aİ və digər qurumlara Türkiyənin buraxılması mümkün deyil. Ona görə də Prezident Ərdoğan Rusiya və digər Avrasiya oyunçuları, həmçinin digər Asiya ölkələri ilə birgə qurumlarda fəaliyyətə meyl edir. Çin və Rusiyanın köməyi ilə prezident Ərdoğan Türkiyənin güclənməsini təmin etmək istəyir. Çinə də, Rusiyaya da, İrana da Türkiyənin Amerikaya qarşı onlarla birgə olması lazımdır. ŞƏT-in ərazi və resurs potensialı çox böyükdür. Sadəcə olaraq, dünyanın maliyyə sistemi dollar mərkəzli olduğuna görə maliyyə resursları köhnə dünya ilə müqayisə edilə bilmir. Bununla belə, proseslər dünya iqtisadiyyatında ehtimal edilə bilən dəyişikliklərin ola biləcəyindən xəbər verir. Maliyyə mərkəzlərinin dəyişməsi böyük hərbi tələtümlərdən sonra baş verir. Dünyada isə Ukrayna, Yaxın Şərq və digər bölgələrdə ciddi hərbi toqquşmalar baş verir. Sahədə hər bir böyük və regional oyunçunun öz assimetrik tərəfdaşı var. Yaxın Şərqdə Hizbullah kimi İranın assimetrik tərəfdaşları var. HƏMAS müəyyən qədər İran və Türkiyə ilə işləyir. Amerika və Qərb kürd qruplaşmalarını dəstəkləyir. Belə bir ortamda ŞƏT əslində Türkiyə üçün gələcəkdə cərəyan edə biləcək hadisələrdə alternativ platformalardan biridir. Bir ölkənin iqtisadiyyatı nə qədər çox fərqli qurumlarda iştirak edərsə, təhlükəsizliyi bir o qədər təmin edilər. Türkiyəyə qarşı təzyiqlərə gəldikdə isə bu da normaldır. Qərb prezident Ərdoğana qədər Türkiyəyə öz əlavəsi kimi baxırdı. Gah Koreyada vuruşdururdu, gah Əfqanıstana göndərirdi. Həftədə bir kabinet böhranlarına səbəb olurdu. Amma indi xarizmatik lider problemi ilə üz-üzədir. Bu qədər iqtisadi problemlərə, sosial problemlərin dərinləşməsinə baxmayaraq Türkiyə ayaqdadır. Hətta proseslərin əsas oyunçusudur. Onun ŞƏT-ə qoşulması imkanlarını şaxələndirir. Qərb üçün bir zamanlar öz nəzarəti altında olan Türkiyənin indi müxtəlif qurumlarda iştirakına özünün qərar verməsi qəbuledilməzdir. Bir də dünyanın mərkəzi dəyişir. Bunu ancaq dərin analitiklər hiss edir. Bütün əsrlərin ilk rübü tələtümlər və mərkəzlərin yenilənməsi dövrləridir. Dünya "dəri"sini dəyişmək zorundadır. Dəri dəyişmək isə sancılı prosesdir".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Hakan Fidanın "sərhədləri aça bilərik" bəyanatındakı mesaj

**Türkiyənin xarici işlər naziri Hakan Fidan yerli "Sabah" nəşrinə müsahibə verib. O, Türkiyə-Ermənistan, Ermənistan-Azərbaycan danışıqlarının indiki səviyyəsindən danışıb. "Azərbaycanla Ermənistan arasında danışıqlar prosesi davam edir. Bunun müsbət nəticə əldə etməsi üçün ssenarimizi hazırlamalıyıq. Hazırkı fəaliyyətlər də bu istiqamətdədir. Əgər tamamlanarsa, müsbət ssenarini aktivləşdirəcəyik. Beləliklə, biz sərhəd qapımızı aça bilərik", - deyə nazir bildirib.**

Qeyd edək ki, üç gün öncə Ermənistan-Türkiyə sərhədində iki ölkə arasında münasibətlərin normallaşması üzrə xüsusi nümayəndələri Ruben Rubinyan və Sərdar Kılıçın 5-ci görüşü keçirilib.

Hakan Fidanın fikirlərini Sherg.az-a dəyərləndirən "Report" İA-nın əməkdaşı, siyasi şərhçi Kənan Novruzov söyləyib ki, hazırda Türkiyə ilə münasibətlərin normallaşması Ermənistan üçün kritik dərəcədə əhəmiyyətlidir: "Çünki rəsmi İrəvan bu gün Rusiya ilə Qərb arasında sıxılır. Ermənistan faktiki olaraq siyasi poliqona çevrilib və gələcəkdə hərbi meydana çevrilməsi də istisna edilmir. Belə bir şəraitdə Ermənistana yeni təhlükəsizlik çətiri lazımdır. Buna görə də ən optimal variant regional əməkdaşlıq mühitinin təmin olunması, o cümlədən rəsmi Ankara ilə münasibətlərin normallaşmasıdır. Ermənistan isə Türkiyə ilə münasibətləri həqiqətən normallaşdırmaq istəyirsə, səmimi addımlar atmalıdır. Kılıç və Rubenyanın diplomatik/rəsmi pasport sahibləri üçün qarşılıqlı viza prosedurlarını asanlaşdırmaq və Akyaka/Axurik dəmir yolu sərhəd qapısının regional inkişaflara uyğun olaraq istifadəyə verilməsi üçün tələb olunacaq texniki ehtiyacları qiymətləndirmək barədə də razılığa gəlməsi Ermənistanın, həqiqətən də Türkiyə ilə münasibətləri normallaşdırmaq istəyindən xəbər verir. Amma Türkiyə ilə Ermənistan arasında münasibətlərin indiki şəraitdə sona qədər davam etməsi mümkün deyil. Çünki Ermənistan konstitusiyasında Azərbaycan və Türkiyəyə qarşı ərazi iddiaları var. Bu isə perspektivdə yenidən "suların bulanması" və regional təhlükəsizliyə təhdid yaranması üçün ciddi əsasdır".

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

# Ölkədə D kateqoriyalı sürücü qıtlığı - iki mühüm səbəb

## Avtobus sürücülərinin xaricə kütləvi axını...

**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi bir müddət əvvəl təkcə "BakuBus" şirkətinə 1000-dən artıq D kateqoriyalı sürücüyə ehtiyac olduğunu açıqlamışdı.**

Son 24 ayda avtobus sürücülərinin xaricə kütləvi axını müşahidə edilir. Yüksək maaş yüzlərlə sürücünü cəlb edir və onlar ölkədən kütləvi şəkildə gedirlər. Azərbaycanda aldıqları maaşın təxminən 4 qat artığını alırlar. Burada 800 manat ala bilənlər, orada 3000 manatdan çox qazanırlar, hətta ayda 5 min manata yaxın maaş alanlar da var. Ekspertlərə görə, aidiyyəti qurumlar müəyyən planlar işləyib hazırlamalıdırlar ki, sürücülərin də normal maddi təminatları olsun və xaricə getməsinlər.

İkinci mühüm məsələ ekspertlərə görə, hazırda bekar qalan taksi sürücülərinin çoxunun avtobus idarə etmək üçün müvafiq kateqoriyası olmamasıdır. O da bildirilir ki, D kateqoriyasını oxuyub imtahan verərək almaq çox çətindir.

**"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov** "Yeni Müsavat"a deyib ki, son 10 ildə Azərbaycanda ictimai nəqliyyatın keyfiyyətinin yaxşılaşdırılması üçün addımlar atılıb. Lakin ümumilikdə çox ciddi problemlər hələ də qalmaqdadır: "Müasir avtobuslar alınaraq ölkəyə gətirilib. Avtobuslar üçün ayrıca zolaqlar müəyyən olunub. Amma zaman göstərdi ki, şəhər nəqliyyatının inkişafı üçün nəqliyyat infrastrukturun qənaətbəxş olması ilə yanaşı peşəkar sürücü bazasının formalaşdırılması da lazımdır: "Əlbəttə ki, bu sahənin sürücülərinin peşəkarlığı yüksək səviyyədə olmalıdır. Onların peşəkarlığı təkcə nəqliyyat vasitələrini idarə etməklə deyil, onların mədəni davranışı ilə də şərtlənməlidir. Sürücülərə kateqoriya verilməsi də sadələşdirilməlidir. İmtahandan lazımsız, sovet dövründən qalma, o zamanın tələblərinə uyğun suallar çıxarılmalıdır. Həmin suallar müasir, "beyni" olan avtobusların texniki göstəricilərinə heç bir aidiyyəti yoxdur. Sürücülərin praktik bilikləri önə çıxarılmalı, davranışları əsas götürülməldir. Əgər sürücünün praktiki bilikləri yüksək səviyyədədirsə, davranışında qüsurlar varsa, qeyri-insani prinsiplərə uyğun davranırsa, bu və ya digər mənada insanların maraqlarına zidd hərəkətlər edirsə, təbii ki, belə sürücülər ictimai nəqliyyatdan uzaq saxlanılmalıdır".

**Natiq Ələsgərov deyib ki, ölkədə sürücü bazası var, amma həmin bazanın zamanla yenilənməsi də vacibdir:** "Peşəkarlıq daima artırılmalıdır. Ölkədə hər gün yol infrastrukturu dəyişir, yeni yollar salınır, yeni yol nişanları tətbiq olunur, yeni marşrutlar müəyyən olunur. Sürücülər avtobusların salonlarında sərnişinlərlə davranma, ekstremal şəraitdən çıxmaq vərdişlərinə sahib olmalıdırlar. Sərnişin tərəfindən sürücüyə sərgilənən sərt davranışa eyni tərzdə qarşılıq verməməlidir. İctimai nəqliyyatda sürücü işləmək məsuliyyət, dözüm tələb edir. Bu gün D kateqoriyalı sürücülər 1000 manata işləmirlər. Belə maaş onları qane etmir. Çünki tələblər yüksəkdir, maaş isə bu tələblərə uyğun deyil. Ona görə də avtobus sürücülərinin xaricə kütləvi



axını var. Gedib 3-5 min manata işləyir, ildə 1-2 dəfə ölkəyə gəlib gəzib qayıdıb gedirlər. D kateqoriyaları sürücülərə ehtiyac var, amma həmin ehtiyaca uyğun əmək haqqı verilmir. Ona görə də xaricə axışırlar, ölkədə də sürücü tapılmır".

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı "Sputnik Azərbaycan"a bildirib ki, əvvəllər avtobus sürücüləri planla işlədiklərindən, bu işdə çalışmaq onlara sərf edirdi:** "Onlar qoyulan planı ödədikdən sonra əldə etdikləri gəlir özlərinə qalırdı. Amma avtobuslar kart sisteminə keçdikdən sonra plan ləğv edildi. Hazırda 70 faiz avtobus kart sistemi ilə işləyir. Kart sistemində isə maaş 800-1000 manat olduğundan, bu, sürücüləri qane etmir. Ona görə də avtobus sürücülərinin kütləvi axını xaricə müşahidə edilir. Polşaya üz tutan avtobus sürücüləri ayda 5 min manata yaxın maaş alır. Onları xaricə getdiklərinə görə qınamaq da olmaz. Çünki orada təminatları daha yaxşıdır".

Ekspert bildirib ki, nazirlik tərəfindən avtobus sürücüləri üçün pulsuz təlimlər keçirilsədə, bu layihəyə maraq az olub. Avtobus sürücüsü olmaq üçün heç 50 nəfər müraciət etməyib. İşsiz taksi sürücülərini avtobus sürücülüyünə cəlb etməyin əsas yolu bu peşədə əmək haqqının yüksəldilməsidir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) bildirilib ki, son bir ildə yalnız Bakı şəhərində 200-dən çox avtobusun istismara verilməsi təmin edilib. Həmçinin bu il ərzində daha 200 avtobusun təmir olunaraq istismara qaytarılması, eləcə də 160 yeni elektrik avtobusunun da alınaraq Bakı şəhərinə gətirilməsi və sərnişinlərin xidmətinə verilməsi planlaşdırılır. Avtobus parkının genişlənməsi bu sahədə yeni iş yerlərinin yaranmasına şərait yaradır. Hazırda təkcə "BakuBus" MMC-də sürücülər üçün 1000-ə yaxın yeni iş yeri yaradılır.

"Əmək Məcəlləsinə uyğun olaraq sürücülərin növbəli rejimdə işləməsi nəzərdə tutulur. Sürücülərin sosial müdafiəsinin gücləndirilməsi və layiqli həyat şəraitinin təmin edilməsi istiqamətində tədbirlər davam etdirilir. Nümunəvi fəaliyyətə görə, daha dəqiq desək, neqativ halların və cərimələrin olmamasına görə sürücülər aylıq mükafatlandırılacaq. Sürücülər AYNA-nın təlim-tədris mərkəzində sərnişinlərin təhlükəsizliyinə, yol hərəkəti qaydalarına və nəqliyyat vasitəsinin təhlükəsizliyinə dair bütün biliklərə yiyələnə bilərlər" - AYNA-dan bildirilib.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Sənədsiz 400 min ev üçün normativ akt hazırlanır

## Yeni akt sayəsində hansı tikililərə "kupça" veriləcək?

**Hazırda sənədsiz tikililərin böyük əksəriyyəti Bakı və Bakıətrafı ərazilərdə yerləşir. Qiymətləndirmələrə görə, hazırda ölkəmizdə 500 mindən artıq sənədsiz fərdi evin olduğu bildirilir ki, onların böyük əksəriyyəti kommunikasiya xətlərinin mühafizə zolağında inşa olunub, tikinti normativlərinin tələblərinə cavab vermir.**



Həmin evlərin yerləşdiyi ərazinin mühəndis-kommunikasiya zonalarının mürəkkəbliyi, elektrik xətlərinin altında, eləcə də qaz, su, kanalizasiya, digər kommunikasiya qurğularının üzərində yerləşməsi mülkiyyət sənədi ilə təmin edilməsinin qarşısını alır. Xüsusilə də Bakı və Bakıətrafı ərazilərdə sənədsiz evlərin yerləşdiyi ərazinin mürəkkəbliyini nəzərə alsaq, çıxış yolu da tapmaq mümkün olmur. Çünki həmin sahələrə nəzarət edən aidiyyəti qurumların böyük bir qismi evlərin ilkin mühəndis və layihə sənədlərini vermir. Bunun da əsas səbəblərindən biri həmin evlərin böyük bir qisminin sənədləşməsi üzrə vəziyyətinin qanunvericliyin tələblərinə uyğun gəlməməsidir. Çünki bu evlərin əksəriyyəti vaxtilə heç bir icra hakimiyyəti orqanından tikintiyə dair razılıq, mü vafiq layihə və xəritə sənədləri almayıb və qanunsuz inşa edilib və özbaşına tikili hesab edilir. Bu isə Mülki Məcəllənin tələblərinin pozulması deməkdir.

Bu səbəbdən də Azərbaycanda sənədsiz evlərə bağlı ayrıca normativ hüquqi aktın qəbulu nəzərdə tutulub. Bunu Daşınmaz Əmlakın Elektron Reyestri və Kadastrı İnformasiya Sisteminin yaradılması ilə bağlı tədbirdə Daşınma Əmlakın Dövlət Kadastrı və Reyestri publik hüquqi şəxsin idarə heyətinin sədri Nigar Alimova deyib: "Azərbaycanda təxminən 400 min sənədsiz fərdi yaşayış evi var. Bunların əksəriyyəti mühafizə zonalarında, yüksək gərginlikli xətlərin keçdiyi ərazilərdə yerləşir. Sənədsiz evlərlə bağlı problem daim olub və biz bunun həlli istiqamətində çalışırıq".

Bəllidir ki, sənədsiz evlərlə bağlı yeni akt hazırlanır. Maraqlıdır, yeni akt sayəsində hansı tikililərə "kupça" veriləcək?

***Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev "Bakı-Xəbər"ə şərhində bildirdi ki, Bakı və Abşeron ərazisində yüzminlərlə çıxarış ala bilməyən fərdi həyət evləri və torpaq sahələri mövcuddur:*** "Bu əmlaklara çıxarışların verilməməsinin müxtəlif səbəbləri var. Hansısa fərdi həyət evinə çıxarışın verilməsi üçün həmin fərdi həyət evinin yerləşdiyi torpaq sahəsinin təyinatı yaşayış məntəqələrinə uyğun olmalıdır. Çıxarış ala bilməyən əmlakların böyük əksəriyyətinin torpaqları kənd təsərrüfatı və yaxud digər təyinatlı torpaqlardır. Təyinat dəyişikliyinin mümkünsüzlüyü səbəbindən də bu əmlaklara çıxarış verilə bilmir".

**Ekspert onu da əlavə etdi ki, sənədsiz fərdi yaşayış evlərinin sayı çoxdur. Sənədsiz evlərlə bağlı rəqəmin 400 min göstərilməsinə gəlincə, ekspert bildirdi ki, yaşayış evi olmayan torpaq sahələri, qeyri-yaşayış obyektləri kimi çox sayda əmlak da var:** "Onu da deyim ki, bəzi əmlaklar qadağan edilmiş ərazilərdə tikilib. Həmin ərazilərdə çıxarışların verilməsi qanunla mümkün deyil. Qadağan olunmuş ərazilərdəki bəzi əmlaka kommunikasiya xətlərinin yeri dəyişildikdən sonra çıxarışlar verilə bilər. Bununla yanaşı, bir qism əmlakların tikintisi zamanı tikinti normativləri kobud şəkildə pozulub. Tikintilərdə ara məsafələrin qorunmaması bu məsələyə təsir edir".

Ekspert hesab edir ki, yeni hüquqi aktın hazırlanması bu tip əmlaklara çıxarışların verilməsi prosesini sürətləndirə bilər.

❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

# Bölgədə yeni nəqliyyat xəritəsi

## ABŞ Ermənistanı Orta dəhlizdə görmək üçün...

**ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen bildirib ki, ABŞ Rusiya və Çindən yan keçməklə, Mərkəzi Asiya ölkələrindən dünya bazarlarına Ermənistan və Azərbaycan ərazilərindən keçməklə yeni quru yolu yaratmaq imkanını nəzərdən keçirir. O'Brayen bu barədə Senatın Xarici Əlaqələr Komitəsində hesabat verərkən danışıb: "Mərkəzi Asiya ölkələri inanılmaz dərəcədə zəngindir və onların dünya bazarlarına çıxmaq üçün yeganə variantı Rusiya və ya Çindən keçir. Əgər biz Ermənistan və ya Azərbaycan ərazisindən keçən marşrutu aça bilsək, o zaman onlar dünya bazarlarına çıxış əldə edəcəklər və Rusiya və Çindən daha az asılı olacaqlar".**

Qeyd edək ki, bu, O'Braynın Mərkəzi Asiya ölkələri ilə Avropanı əlaqələndirmək planı barədə ilk açıqlaması deyil. İyun ayının 28-də o, jurnalistlərə açıqlamasında Orta dəhliz - Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi barədə danışaraq, layihəni "bütövlükdə region üçün çox mühüm bir addım" adlandırıb: "Biz Azərbaycanın Xəzər dənizindən keçən mal və xidmətlərin Gürcüstan ərazisi vasitəsilə qlobal bazarlara çıxarılması üçün böyük imkanları görürük. Amma biz həm də inanırıq ki, Ermənistandan keçərək Türkiyəyə, Qara dənizə, Atlantik okeanına, əsasən də Aralıq dənizinə çıxmaq üçün böyük imkanlar var. Bu fürsət daşıma xərclərini aşağı salmağa kömək edəcək. Bu, geosiyasi müdaxilədən azad olan təhlükəsiz alternativ yollar təqdim edəcək. Bütün bunlar Tacikistandan Türkiyəyə qədər 10 milyonlarla insanın dəhlizin açılmasından faydalanacağını düşünmək üçün böyük səbəbdir. Biz inanırıq ki, bu, bütün maraqlı tərəflərin razılığı ilə edilməlidir və bilirik ki, bu, Ermənistanla Azərbaycan arasında anlaşmadan başlayır".

Qeyd edək ki, Orta dəhliz Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyədən keçməklə Avropa ölkələrinə qədər uzanır. Bakı-Tiflis-Qars dəmir yolu xətti dəhlizin bir hissəsidir. Bu dəhliz yalnız Çin deyil, Mərkəzi Asiya ölkələrinin də ixrac yollarının diversifikasiyası deməkdir. Onların indiyədək Avropa və Amerika bazarına çıxış üçün iki yolu olub: Rusiya və Çin, Orta dəhliz Avropanın Çinlə Rusiyadankənar ərazi ilə dəniz yolundan daha qısa əlaqə imkanı deməkdir. Eyni zamanda Avropa və ABŞ bu dəhlizi Mərkəzi Asiya ölkələrinin Çin və Rusiyadan asılılığını azaldan başlıca vasitə kimi görürlər. Buna görə də dəhlizin inkişafına böyük həcmdə investisiyalar cəlb edirlər.

May ayında Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) və ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) Cənubi Qafqaz vasitəsilə Orta dəhliz-Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunu (Orta dəhliz) inkişaf etdirmək üçün Anlaşma Memorandumu imzalayıblar. Anlaşma Memorandumu AYİB-in Ermənistanda keçirilən illik toplantısı və biznes forumu çərçivəsində AYİB-in bank işi üzrə vitse-prezidenti Matteo Patrone və USAİD-in Avropa və Avrasiya Bürosunda Administrator köməkçisi Erin Elizabeth McKee tərəfindən imzalanıb.

**AYİB-in yaydığı məlumata görə, tərəfdaşlıq Azərbaycan, Ermənistan və Gürcüstanda ticarətin, "yaşıl enerji"nin, yeni sənaye sahələrinə investisiyaların, nəqliyyat və rəqəmsal infrastrukturun genişləndirilməsinə diqqət yetirəcək:** "Orta dəhlizin gücləndirilməsi regionda yeni, transformativ iqtisadi imkanlar yaradacaq və mövcud kommersiya dəhlizlərinə alternativ nəqliyyat marşrutu təqdim edəcək".

Memorandum regionda mühüm enerji, nəqliyyat, rəqəmsal və kənd təsərrüfatı infrastrukturunun planlaşdırılması, dizaynı və tikintisini təkmilləşdirməyi hədəfləyir. Həmçinin memorandumla gömrük, tarif və sərhəd əməliyyatlarının səmərəliliyini artırılması, Orta dəhlizin inkişafı üçün Cənubi Qafqaz iqtisadiyyatlarına özəl investisiyalarının cəlb edilməsi, eləcə də Avropa və Cənubi Qafqaz ölkələri arasında iqtisadi əlaqəni inkişaf etdirmək üçün ən yüksək beynəlxalq standartların tətbiqi hədəflənir. Digər əməkdaşlıq prioritetləri karbonsuz enerji imkanlarına sərmayələrin genişləndirilməsinə və korrupsiya ilə mübarizə və vətəndaş cəmiyyəti ilə əlaqəni genişləndirmək üçün siyasət və idarəetmə islahatlarının təkmilləşdirilməsinə yönəldilib.

Ötən payızdan - Qırmızı dənizdə yükdaşımalara ciddi problem yaranandan sonra Avropa İttifaqının bu dəhlizə marağı qat-qat artıb. Mart ayında rəsmi Brüssel marşrutun zəif həlqələri olan Qazaxıstan, Özbəkistan və Qırğızıstanda infrastrukturla bağlı layihələrə 4,7 milyard avro ayırıb. Aİ-nin dəhlizinin inkişafına 10 milyard avro sərf edəcəyi açıqlanıb.

ABŞ Orta dəhlizin bir qolunun Ermənistandan keçməsində maraqlıdır. Bunu Vaşinqton İrəvanın Rusiyadan uzaqlaşması yolunda mühüm vasitə kimi qiymətləndirir. Hazırda Çindən yüklərin Qazaxıstan, Türkmənistan və İran üzərindən Ermənistana çatdırılması həyata keçirilir. Lakin bu, ABŞ üçün qəbuledilən variant deyil: İran faktoruna görə. Eyni zamanda yüklərin Ermənistandan Gürcüstana, oradan Avropaya çatdırılması variantı da getdikcə Avropa və ABŞ üçün daha az cəlbedici olmağa başlayır. Gürcüstanın mövcud hakimiyyəti Vaşinqton və Brüsseli məyus edən addımlar atmaqla ölkənin beynəlxalq və regional layihələrdə iştirakı imkanlarına da ciddi maneələr yaratmaqdadır.

Bu səbəbdən də ABŞ administrasiyası Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin mümkün qədər tez imzalanması və Xəzər dənizi ilə gələn yüklərin bir qisminin Azərbaycan-Ermənistan-Türkiyə yolu ilə Avropaya çatdırılmasına nail olmağa çalışır. Bu baxımdan, son aylarda ABŞ-ın bu yola - yeni Zəngəzur dəhlizinə marağı sürətlə artır. Eyni prosesin Avropada da getdiyi açıq hiss olunur. Avropa strukturları Ermənistanla birgə layihələrdə diqqəti daha çox Orta dəhlizin inkişaf perspektivlərinə ayırırlar. Buna görə də Ermənistanda mövcud hökumətin Zəngəzur dəhlizi layihəsi üzrə razılaşmaya məcbur edildiyinə dair müzakirələr aparılır...

Orta dəhlizin zəif halqalarının müəyyənləşdirilməsi, onların aradan qaldırılması üçün tədbirlərin hazırlanması işləri yekunlaşdırılıb, layihə iştirakçıları bu istiqamətdə aktiv fəaliyyətlərə başlayıblar. 2023-cü ildə bu marşrutla 2,7 milyon tondan çox yük daşınıb ki, bu da 2022-ci illə müqayisədə 86 faiz çoxdur. 2024-cü il üçün perspektiv plan təxminən 4 milyon tondur. İlin birinci yarısında daşınmaların həcmi 2,1 milyon tona çatıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 65 faiz artım deməkdir.

Azərbaycan Orta dəhlizlə getdikcə artan yük axınını vaxtında ötürmək üçün öz infrastrukturunu sürətlə təkmilləşdirir. Bakı-Tiflis-Qars dəmiryol xəttində aparılan təkmilləşdirmə işləri may ayında başa çatdırılıb. Nəticədə yolun ötürücülük gücü 5 milyon tona çatdırılıb.

Bu ilin I yarısında Azərbaycan ərazisi ilə daşınan tranzit yüklərin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 14 faiz artaraq 7,8 milyon ton olub. "Azərbaycan Dəmir Yolları" QSC-dən verilən məlumata görə, Çindən Orta dəhlizlə cari ilin əvvəlindən iyun ayının sonuna kimi ümumilikdə 105 blok qatar yola salınıb. Ümumilikdə bu ilin yanvar-iyun aylarında Azərbaycanın dəmiryolları ilə 9,3 milyon tondan çox yük daşınıb ki, bunun da 3,9 milyona yaxını konteyner yükləri də daxil olmaqla tranzit yükü olub. Tranzit yükdaşımalar ötən illə müqayisədə 8 faizdən çox artıb.

Hazırda Azərbaycan Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün iki mühüm layihə həyata keçirir. Bunlardan birincisi 104,7 km uzunluğunda Horadiz-Ağbənd dəmiryol xəttidir. Artıq xətt üzrə işlərin 60 faizdən çoxu yerinə yetirilib. Digər mühüm layihə 123,6 km uzunluğunda Horadiz - Cəbrayıl - Zəngilan - Ağbənd (Zəngəzur dəhlizi) avtomobil yolunun tikintisidir. Hər iki yolun 2024-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Ermənistan hələlik Zəngəzur dəhlizi ilə bağlı işlərə başlamayıb. Dəhlizlə daşımaların başlaması üçün bu ölkənin ərazisində 50 kilometrə yaxın avtomobil və dəmiryol xəttinin tikintisinə ehtiyac var. İrəvan yüklərin mövcud yollarla Gürcüstan, yaxud daha uzun məsafə qət edilməklə Naxçıvana çatdırılması üzərində təkid edir. Burada həm də İranın mövqeyi rol oynayır: Tehran Zəngəzur dəhlizinin onun Ermənistanla əlaqəsini kəsəcəyi kimi gülünc iddia ilə İrəvanın layihədən yayınmasına çalışır. Bu istiqamətdə İran hakimiyyəti dəhlizin Ermənistanın zərərinə olduğuna dair fikirlər səsləndirilir. Aydındır ki, İranın bu mövqeyi Ermənistanın qeydinə qalmasından qaynaqlanmır. Tehran Zəngəzur dəhlizinin onun regional tranzit ərazi kimi mövqeyinin daha da zəiflədəcəyini yaxşı hesablayır. Çindən yüklərin Mərkəzi Asiya-Xəzər dənizi-Azərbaycan-Ermənistan-Türkiyə marşrutu ilə Avropaya çatdırılması İranın böyük bir layihədən birdəfəlik kənarda qalması deməkdir. Buna görə də Tehran hakimiyyəti var gücü ilə Zəngəzur dəhlizinin açılmasının qarşısını almağa çalışır.




Erməni ekspertlərin fikrincə, Zəngəzur dəhlizinin Azərbaycanın maraqlarına uyğun reallaşmasına ABŞ və Avropa da etiraz etmir. Hər iki mərkəzdə bu prosesin iki ölkə arasında dayanıqlı sülhün əldə olunması ilə müşayiət olunmasına çalışır. Lakin İrəvanın ənənəvi torpaq iddialarını kənara qoyması, Bakının isə bu məsələdə güzəştə getməməsi prosesin yubanmasına səbəb olur...

Zəngəzur dəhlizi Ermənistanla Azərbaycan arasında münasibətlərin dayanıqlı sülh müstəvisinə keçidi üçün ən vacib layihələrdən biridir. Bu, iki ölkə münasibətlərinin hərb-müharibə yolundan qarşılıqlı iqtisadi əməkdaşlıq müstəvisinə keçidini təmin edəcək. Həm ABŞ, həm də Avropa İttifaqı bu potensialı yüksək qiymətləndirirlər. Ona görə də İrəvanın tezliklə layihəyə razılıq verməsinə nail olmaq istəyirlər. Bu baxımdan, 2024-cü il ərzində mühüm qərarların alına biləcəyi istisna olunmur...

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024




# Laçın könüllüləri fəaliyyətə başladı

## Prezidentin xüsusi nümayəndəsi Məsim Məmmədov onlarla görüşüb

**İşğaldan azad olunmuş Laçın şəhərində Laçın könüllülərinin təqdimatı keçirilib. Prezidentin Laçın rayonunda Xüsusi Nümayəndəliyinin, Gənclər və İdman Nazirliyinin və Gənclər Fondunun dəstəyi ilə "Böyük Qayıdış" Gənclər Təşkilatı tərəfindən formalaşdırılan "Qayıdış Könüllüləri" Proqramının "Laçın Könüllüləri" qrupu ilk dəfə olaraq ərazidə fəaliyyətə başlayıb.**

Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərimizdə aparılan işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb edilməsi çağırışına uyğun olaraq həyata keçirilən "Qayıdış Könüllüləri" proqramının əsas məqsədi azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən oradan olan gənclərin doğma torpaqlarında yenidənqurma və bərpa işlərində, eləcə də bölgənin zəngin tarixi-mədəni irsinin təbliğində iştirakını təşviq etmək və Böyük Qayıdış prosesinə töhfə verməkdir.

Laçın könüllülərinin şəhərə təşkil olunan səfəri zamanı Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov könüllülərlə görüşərək şəhərdə aparılan bərpa və quruculuq işləri haqqında, həyata keçirilən və gələcəkdə keçirilməsi planlaşdırılan layihələr haqqında geniş məlumat verib, könüllülərin səfər təəssüratlarını dinləyib, onlara bu nəcib işdə, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Həmçinin görüşdə tərəfdaş qurumların nümayəndələri könüllülərə işğaldan azad olunmuş ərazilərdə, eləcə də Laçın rayonunda könüllü fəaliyyətinin təşkili və onların iştirakı ilə həyata keçiriləcək fəaliyyətlər haqqında ətraflı məlumat veriblər. Bildirilib ki, Laçın könüllülərinin belə səfərlərinin tez-tez təşkili, eyni zamanda nümayəndəliklə birlikdə Laçın rayonunda müxtəlif məzmunlu, maraqlı tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Ekskursiya zamanı könüllülər işğaldan azad olunmuş, həyatın yenidən canlandığı, gündən-günə abadlaşan Laçın şəhərinin ərazisi ilə, buraya köçürülən ailələr üçün yaradılan şəraitlə yaxından tanış olub, şəhərdə aparılan bərpa və yenidənqurma işləri haqqında ətraflı məlumat əldə ediblər. Həmçinin könüllülər şəhərdə fəaliyyət göstərən "Hoçazfilm" yaradıcılıq studiyasının çəkiliş pavilyonunda və "Gilabi Ceramics" Yaradıcılıq Mərkəzində olublar.

Qeyd edək ki, könüllülər növbəti mərhələlərdə Laçın rayonunda fəaliyyət göstərəcəklər, o cümlədən tədbirlərin təşkilində yaxından iştirak edəcəklər. Eləcə də bölgəyə səfər edən yerli və xarici qonaqlarla işləyəcək, bərpa və yenidənqurma işlərinə, qayıdışa hazırlıq və məskunlaşmaya könüllü dəstəyin göstərilməsinə cəlb olunacaqlar.



# Xaricdən gələn turistlər bölgələrə getmirlər - səbəb

## Ekspert: "Hava limanının, ölkəyə giriş-çıxışın məhz Bakı üzərindən olması..."

**Azərbaycanın qədim tarixə malik olması, Xəzər dənizi sahilində yerləşməsi, əlverişli təbiəti, tarixi abidələrlə zənginliyi, dünyanın 11 iqlim qurşağından 9-nun burada mövcudluğu və insanların qonaqpərvərliyi ölkəmizdə turizmin inkişafı üçün geniş imkanlar yaradır.**

Azərbaycan son illər xarici turistlərin ən çox səyahət etdiyi ölkələrdən birinə çevrilib. Lakin müşahidələr onu göstərir ki, gələn turistlər daha çox Bakıda qalmağa üstünlük verirlər. Açıqlanan statistik rəqəmlərə əsasən, Azərbaycana gələn turistlərin 82.5 faizi Bakı şəhərinə üstünlük verir. Bu o deməkdir ki, ölkəyə gələn hər 10 turistdən cəmi 2-si Bakıdan kənara, rayonlara gedir. Turistlərin ikinci ən çox üstünlük verdiyi rayon Qusardır. Azərbaycana gələnlərin 5.0 faizi sözügedən rayonda qalıb. Bütövlükdə xarici turistlərin 3,9 faizi Qəbələdə, 3,6 faizi Naftalanda, 2,9 faizi Qubada, 0,5 faizi Şabranda, 1,6 faizi isə digər şəhər və rayonlardakı mehmanxanalarda qeydə alınıb.

Məlum olur ki, bölgələrimiz xarici turist cəlb etməkdə paytaxt hotellərinə yenə də uduzurlar.

Maraqlıdır, bölgə turizmi niyə paytaxta uduzur?

Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən, ötən ilin ilk 7 ayında Azərbaycana gələn turistlərin sayı əvvəlki ilin uyğun dövrü ilə müqayisədə 37.4 faiz artaraq 1 milyon 143 minə çatıb. Mütəxəssislər bildirir ki, turizm enerji sektorundan sonra ölkəyə ən çox valyuta gətirən sektordur. Pandemiyadan əvvəlki il-2019-cu ildə ölkəyə 3 milyondan çox turist gəlib və əcnəbilər həmin il Azərbaycanda 2.6 milyard dollara yaxın vəsait xərcləyib.

Qeyd edək ki, ötən il ölkəyə gələn turistlərin coğrafi mənşə strukturunda əvvəlki illərlə müqayisədə dəyişiklik müşahidə olunub. Belə ki, avropalıların sayının artması, ərəb turistlərin səfərlərinin azalması qeydə alınıb. Bu müddətdə MDB ölkələrindən gələnlərin sayı 1,7 dəfə artaraq 477,1 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 36,5 faiz artaraq 57,2 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 8,6 faiz azalaraq 185,4 min nəfər olub.

Dövlət Turizm Agentliyinin məlumatında deyilir ki, turistik səfərlər ənənəvi 4 turizm dəhlizi üzrə fokuslanır. Bakı-Şimal, Bakı-Şimal-Qərb, Bakı-Qərb, Bakı-Cənub turizm dəhlizləri üzrə əsas turizm resurslarının cəmləşdiyi bölgələr ən çox səfər olunan istiqamətlərdir. Xüsusilə bayram və istirahət günlərində bu bölgələr üzrə turistik səfərlərin artdığı müşahidə olunur. Bu dəhlizlərdən əlavə, Naxçıvan ayrıca turizm destinasiyası kimi diqqət çəkir. Həmçinin işğaldan azad olunan ərazilər turizm destinasiyası kimi formalaşmaqdadır.

Mütəxəssislər qeyd edirlər ki, bölgə turizmi ötən illərə nisbətən inkişaf edib. Bununla belə, bölgələrdə müxtəlif tipli hotellər, mehmanxana müəssisələri tikilməli, qida keyfiyyətinə nəzarət edilməlidir. Bölgələrdə turistlərə göstərilən xidmətlər hələ də istənilən səviyyədə olmadığı qeyd edilir. Xidmət səviyyəsi ilə yanaşı, həmçinin qiymətlər də yüksəkdir, bu səbəbdən yerli əhali də öz bölgələrimizdə istirahət edə bilmir. Bunun üçün mütəxəssislər cəlb edilməlidir. Dəfələrlə bu barədə xəbərdarlıq edilsə də, sahibkarlar, müvafiq qurumlar turizmə barmaqarası yanaşırlar.

**Turizm üzrə ekspert Ceyhun Aşurov mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, Azərbaycanda turizm potensialı yüksəkdir:** "11 iqlim tipindən 9-u məhz Azərbaycandadır. Ölkəmizin Şimaldan Cənuba, Qərbdən Şərqə səyahət edən insanlar bu iqlim tiplərinə rast gələ bilir. Azərbaycanın turizm bölgəsinə çevrilməsi imkanları çox genişdir. Təsadüfi deyil ki, turizm Azərbaycan iqtisadiyyatı üçün prioritet sahələrdən hesab olunur. Bu günədək Azərbaycanda turizmlə bağlı ciddi infrastruktur işləri görülüb, yollar çəkilib, müxtəlif obyektlər tikilib. Hazırkı dövrü nəzərə alsaq ki, quru sərhədlər bağlıdır və ölkəyə giriş-çıxış nöqtəsi əsasən Bakı şəhərindən olur. Azərbaycanda bir neçə beynəlxalq hava limanının olmasına baxmayaraq əsas giriş-çıxışların 90 faizindən çoxu məhz Bakı üzərindən həyata keçirilir. Bunu da nəzərə alaraq qeyd etmək lazımdır ki, ölkəyə gələn turistlər gəldikləri və getdikləri gün Bakıda olmaq məcburiyyətindədirlər. Turistlərin ölkəmizə beş günlük səfərinin ilk və son günü Bakının payına düşmüş olur. Səbəblərdən biri budur. İkinci səbəb isə Bakı şəhəri infrastrukturuna, parklarına, restoranlara, qalma yerlərinin kifayət qədər çox olmasına, hotellərinin sayına görə regionlardan daha üstün səviyyədədir. Ona görə də turistlər üçün daha əlverişli şərtlər və şərait təqdim edə bilir. Düzdür, regionlarda da bu işlər görülür. Xüsusən də yeni yolların çəkilməsi, ödənişli yolların istifadəyə verilməsi, sürət qatarının olması və sair regionlara gedişi asanlaşdırır. Misal üçün, Quba, Qusar, Qəbələnin turizm infrastrukturu ora gələn turistlərin sayına təsir edir. Eyni zamanda Naftalan, Gəncə sürət qatarının olması bu istiqamətdə turistlərin aktivliyinə təsir göstərir. Cənub zonasında yeni yolun istifadəsindən sonra biz ora gedənlərin sayının artımını müşahidə edirik. Ümumilikdə, əsas iki səbəbi qeyd etmək olar. Hava limanının, ölkəyə giriş-çıxışın məhz Bakı üzərindən olması, ikinci isə Bakıda turistlər üçün daha çox əyləncənin, istirahətin, restoran, hotellərin olması ilə əlaqədardır. Bu mənada gələn turistlər zamanını əsasən paytaxtda keçirir".

**İqtisadçı Eldəniz Əmirov isə hesab edir ki, ölkə turizmində nə qədər ev təsərrüfatları çox iştirak edərsə, bu sektor bir o qədər inkişaf edər:** "Azərbaycanda da ev təsərrüfatlarının turizmdə iştirak etməsi üçün ya quru sərhədlər açılmalıdır, ya da paytaxtdan bölgələrə ucuz qiymətə aviareyslər olmalıdır. Paytaxta təyyarə ilə düşən turist ucuz qiymətə, qısa müddətə bölgələrə gedə bilsin. Bölgələrdə hava limanlarının yetərli olmaması və məsafənin uzunluğu nəticədə ölkəmizə səyahət etmiş turistlərin 80-83 faizə qədərinin məhz Bakıda qalması ilə nəticələnir. Yaxud da quru sərhədlərin açılması strateji cəhətdən uyğun hesab edilmirsə, o zaman hava limanlarının infrastrukturunun yaradılması və ucuz qiymətə aviareyslərin təşkil edilməsi Azərbaycanın turizm sektorunda daha yüksək nəticə əldə olunmasına imkan verə bilər".

**Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (8508) 2 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi



# İnkişafa aparan yollar...

## Müasir yol-nəqliyyat infrastrukturunun qurulması işğaldan azad edilmiş ərazilərdə geniş vüsət alıb

**Yol infrastrukturunun yenidən qurulması ölkəmiz üçün əsas prioritetlərdən sayılır. Hətta ölkə başçısı İlham Əliyev də dəfələrlə çıxışında yolların mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib: "Müasir infrastruktur və yol olmadan iqtisadi inkişaf mümkün deyil". Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində yol qurğularının, eləcə də ölkənin bütün regionlarını və yaşayış məntəqələrini birləşdirən avtomobil yollarının yenidən qurulması və tikintisi üzrə irimiqyaslı layihələr həyata keçirilir.**

Avtomobil Yolları Dövlət Agentliyindən "Yeni Müsavat"a verilən məlumata görə ki, 2003-2023-cü illər ərzində ölkədə 6 782,6 km respublika əhəmiyyətli, 11 418,7 km yerli əhəmiyyətli, 2 454,4 km Bakı şəhər yolları və 47,9 km Sumqayıt şəhər yolları olmaqla 20 703,6 km uzunluğunda yeni yol tikilib, yenidən qurulub və yaxud təmir edilib.

Ötən il ölkədə ilk ödənişli -Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolu istifadəyə verilib. Təməli 2017-ci ildə qoyulan ilk ödənişli yolun açılışı 2023-cü il oktyabrın 20-də Prezident İlham Əliyevin iştirakı ilə baş tutub. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"na uyğun olaraq yeni avtomobil yolunun Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən başlayaraq Rusiya sərhədinədək olan 150 kilometrlik hissəsi birinci texniki dərəcəyə uyğun inşa edilib.

Son dövrlər ölkəmizdə müxtəlif istiqamətlərdə yol infrastrukturunun yenilənməsi beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək dəyərləndirilib. Bəhs olunan dövrdə yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş proqramlar çərçivəsində aparılan islahatlar nəticəsində Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində MDB dövlətləri arasında 1-ci yerdə, dünyanın 140 ölkəsi arasında isə 27-ci yerdə qərarlaşıb.

Müasir yol-nəqliyyat infrastrukturunun qurulması işğaldan azad edilmiş ərazilərdə geniş vüsət alıb. Azad olunmuş torpaqlarımızın bərpası çərçivəsində icra olunan infrastruktur layihələrinin mühüm qismi Qarabağ və Şərqi Zəngəzurda avtomobil yollarının bərpasını əhatə edir. Azad olunan ərazilərdə ən böyük yol layihələrindən biri Füzuli rayonundan Şuşa şəhərinə çəkilən Zəfər yoludur. Uzunluğu 101 kilometr təşkil edən Zəfər yolu iki hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun inşa edilib. Başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Zəfər yolu Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır. Prezident İlham Əliyev 2022-ci il noyabrın 7-də Şuşaya səfəri çərçivəsində yolun açılışını edib. Bu yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi və Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır. İşğaldan azad edilmiş ərazilərdə icra olunan yol infrastrukturu layihələrindən biri də Toğanalı-Kəlbəcər-İstisu avtomobil yoludur. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunun layihə uzunluğu 80.7 kilometr təşkil edir. Ümumilikdə isə ötən il ərzində 803,5 kilometr uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilib, yenidən qurulub və təmir olunub: respublika əhəmiyyətli - 234,3 kilometr, yerli əhəmiyyətli - 398 kilometr, Bakı şəhər yolları 171,2 kilometr. Tədbirlər Planına uyğun olaraq, layihələrdən 12-nin icrasının 2023, 2 layihənin 2024, 3 layihənin 2025, 1 layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub.



Daxili və xarici turizm sahəsinin inkişafının nəqliyyat sistemi və infrastrukturu ilə birbaşa əlaqəli olduğunu nəzərə alsaq, ekspertlər mövcud sahələrin sinxron inkişafının vacibliyini də vurğulayırlar. Azərbaycanda uzun illər turizmin, xüsusilə kənd turizminin inkişaf etdirilməsinə müxtəlif subyektiv və obyektiv amillər mane olub. Bu amillərə əsasən insanların maddi-rifah halının yaxşı olmaması, kənd yerlərində infrastruktur sahələrinin müasir tələblərə cavab verməməsi, nəqliyyat əlaqələrinin zəifliyi, sosial xidmətlərin zəif təşkili, turistlərin müvəqqəti yaşaması üçün yerlərin seçilməsində mövcud olan çətinliklər, kənd yerlərində kommunal xidmətlərin zəif olması və sairə daxildir.

**İqtisadçı ekspert Natiq Cəfərli deyir ki, son 20 ildə Azərbaycanın yol infrastrukturuna milyardlarla vəsait qoyulub, körpülər tikilib:** "Dərd budur ki, keyfiyyətsiz çəkilmiş yollar, tikilmiş körpülər tez aşınır və köhnəlir. Həmin keyfiyyətsiz yollar-körpülər hər il dövlət büdcəsinə ağır yük kimi olacaq, onların təmirinə, normal vəziyyətə gətirilməsinə yenidən milyardlarla vəsait xərclənəcək. O məmurlar həm keyfiyyətdən yeyiblər, həm də kəmiyyətdən, məhz buna görə yollar çökür, körpülər dağılır, 20 il zəmanətlə çəkilmiş beton yollar hər il 20 dəfə təmirə bağlanır. Bəzi məmurlar yola, körpüyə daimi qazanc mənbəyi kimi baxırlar deyə keyfiyyətli yol onlara sadəcə sərf eləmir".



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Afaq Mirayiq

# "AzerGold" Şərqi Zəngəzurda daha bir axtarış-qiymətləndirmə işlərinə başlayıb

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Şərqi Zəngəzur iqtisadi rayonunda yerləşən "Şorbulaq" filiz təzahürləri sahəsində axtarış-qiymətləndirmə işlərinə başlayıb. Məqsəd mövcud təzahürlərin ilkin ehtiyatlarının qiymətləndirilməsidir.**



Səhmdar Cəmiyyətin axtarış-kəşfiyyat proqramına əsasən, burada ilkin mərhələdə kameral qiymətləndirmə və məsafədən tədqiqat işləri aparılıb. Perspektivli zonaların qısa vaxtda müəyyənləşdirilməsi, yüksək vəsait tələb edən buruqqazma işlərinə qənaət edilməsi məqsədilə tədqiqatlarda qeyri-invaziv axtarış metodlarından olan hiperspektral peyk çəkilişlərindən istifadə edilir. Paralel olaraq arxiv geoloji materialların toplanması, sistemləşdirilməsi, rəqəmsallaşdırılması işləri də icra olunub. Cari il ərzində davam edəcək genişmiqyaslı axtarış-qiymətləndirmə işlərinin nəticəsinə uyğun olaraq növbəti tədqiqat mərhələsinə keçid, sahədə buruqqazma işləri ilə bağlı müvafiq qərarlar qəbul ediləcəkdir.

Qeyd edək ki, "Şorbulaq" təzahür sahəsi Kəlbəcər rayonunda, Tərtərçayın sol qolu olan Levçay çayının hövzəsində yerləşir. Təzahür sahəsində qızıl, xrom və civə metallarının olduğu proqnozlaşdırılır. Təzahür sahəsi 1958-ci ildə kəşf edilib.

Xatırladaq ki, "AzerGold" QSC tərəfindən geoloji tədqiqatlar hazırda bir neçə istiqamət üzrə aparılır. QSC-nin idarəetməsinə verilən filiz sahələri ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 22 iyun 2023-cü il tarixli Sərəncamına uyğun olaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə ölkə ərazisində ümumi geoloji axtarış işlərinin icrası davam etdirilir. Həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq QSC tərəfindən mineral xammal ehtiyatlarının monitorinqi, təftişi, axtarışı, qiymətləndirilməsi kimi vacib tapşırıqlar icra edilməkdədir.

YENİ MÜSAVAT

Son səhifə

N 135 (8508) 2 avqust 2024

Avqust

## Bunları bilirsinizmi?

* 1 kq kökəlmək üçün bədənimiz 20 km yeni damar əmələ gətirir.
* Dünya da ən uzun hakimiyyətə qalmış sülalə Osmanlı sülaləsidir. (623 il)
* Qarışqa yuvalarının girişi hər zaman şimala tərəf olur.
* Vaxtının çoxunu musuqi dinləyərək keçirən insanlar daha çox depressiv insanlar olurlar.
* Shakespeare 23 apreldə doğulmuş və 23 apreldə vəfat etmişdir.
* Norveçin şimalında hər yay 14 həftə gecə-gündüz günəşli keçir.
* Timsahlar dillərini çölə çıxara bilmirlər.
* Fransızlar ən nəzakətli xalq sayılır. Bir yazıçı bunu sübut etmək üçün yazır:"Bu yaxınlarda Parisin köhnə bir qəbiristanlığında üzərində yazılar olan bir başdaşı tapdım. Orada yazılmışdır:"Mənim istirahət yerimə yaxınlaşanda ayağa qalxıb sizi salamlamadığım üçün üzr istəyirəm".
* Ağcaqanadların 47 ədəd dişi olur.
* Almaniyadakı zooparklarların birində "Dünyanın ən təhlükəli heyvanı" zalı var. İçəri daxil olduqda qarşınıza nəhəng bir güzgü çıxır.
* Xoşbəxtliyin ən böyük düşməni düşünməkdir. Elm sübut etmişdir ki, az düşünən insanlar daha çox xoşbəxtdir.

## "Əbədi siçan" yaradılacaq

**Kompüter avadanlığı istehsalçısı kimi tanınan "Logitech" şirkətinin baş direktoru Hanneke Faber geniş müsahibə verib.**

Söhbət zamanı menecer şirkətin ekoloji təmizliyə və davamlılığa yönəlmiş gələcək məhsulları haqqında danışıb. Yeniliklər arasında "əbədi siçan" diqqəti cəlb edib. Onun əsas üstünlükləri azaldılan tullantı miqdarı (yeni cihazda batareya dəyişikliyinə ehtiyac yoxdur) və artan xidmət müddətidir. Faberin fikrincə, istifadəçilər yalnız proqram təminatını yeniləməli və ya abunə haqqını ödəməli olacaqlar ki, bu da cihazı daha sərfəli edəcək.



## Maqnit qasırğaları Yerə necə təsir edir?

**"Son bir neçə ildə planetimiz maksimum günəş aktivliyinin təsirinə məruz qalır və buna görə də tez-tez geomaqnit qasırğaları baş verir". Bu barədə Rusiyanın "IZMIRAN" Kosmik Hava Proqnozları Mərkəzinin rəhbəri Artyom Abunin "Komsomolskaya Pravda"ya danışıb. "Kosmik infrastrukturuna gəldikdə, burada təsir həddindən artıqdır. Bu, ilk növbədə, radiasiya, müxtəlif kosmik aparatların elektron lövhələrinin sıradan çıxması və sair təsirlərdir", - deyə ekspert bildirib.**

Yer çox istiləşir, bu da kosmik aparatların yavaşlamasına və planetin səthinə yaxınlaşmasına səbəb olur ki, bu da çox təhlükəli ola bilər. Eyni zamanda Yerin atmosferi və maqnit sahəsinə görə bu cür fırtınaların yer infrastrukturuna təsiri minimaldır, lakin Arktika Dairəsinə yaxın yerlərdə rabitə ilə bağlı problemlər yarana bilər. Bundan əlavə, Abunin vurğulayıb ki, söhbət anomal günəş aktivliyindən getmir, çünki onun orta hesabla 11 il dövrü var.

# 34 il həbsdə qalan amerikalı təqsirsiz bilindi



**34 il əvvəl qətlə görə həbs edilən amerikalı Kristofer Dannın təqsirli olmadığı məlum olub. Missuri Ali Məhkəməsi Kristofer Dannın günahsız olduğu halda 34 illik həbsdən sonra azad edilməsi barədə qərar qəbul edib. 18 yaşlı Dann 1990-cı ildə yeniyetməni güllələyərək qətlə yetirməkdə təqsirli bilinib.**

**Maddi sübutların olmamasına baxmayaraq, o, birinci dərəcəli qətlə görə şərti azadlığa buraxılma imkanı olmadan ömürlük həbs cəzasına məhkum edilib. Üstəlik, hökm 12 və 14 yaşlı şahidlərin ifadəsinə əsaslanıb. Sonradan onlar öz sözlərindən geri çəkilib, prokuror və polis tərəfindən məcbur edildiyini bildiriblər.**

Zərərçəkmişin saxta ittihamlarla həbsdə olduğu illər üçün mümkün kompensasiyanın ödənilməsi barədə məlumat verilmir.



## Açıq havada istirahətin faydaları

**Açıq havada istirahət beyin üçün faydalıdır.**

Bu barədə psixoloq Olqa Danilenko məlumat verib.

"Təbiətdə istirahət insan üçün faydalıdır və beyni boşaltma rejiminə keçirməyə kömək edir. İstənilən təbii mühit beynin stresini azaldır", - deyə psixoloq qeyd edib.

O, göz oxşayan və hər bir insanın öz zövqünə xitab edən mənzərəni axtarıb tapmağı məsləhət görüb.

Həkimin sözlərinə görə, belə bir yerdə istirahət gözlərdəki və sinir sistemindəki gərginliyi aradan qaldırmağa kömək edəcək.

"Bundan əlavə, bu yolla insan öz emosiyalarını və dərin hisslərini daha intensiv aktivləşdirə bilər", - deyə Danilenko qeyd edib.

Xatırladaq ki, daha öncə çinli alimlər təbiətdə vaxt keçirməyin fiziki və psixi sağlamlıq üçün faydalı olmaqla yanaşı, həm də prosocial davranışı - başqalarına kömək etmək istəyini təşviq etdiyini aşkarlayıblar.

# Demensiya riskini 50% azaltmağın yolu



**Bəzi həyat tərzi faktorları demensiya riskini 50% azaldır. Bu barədə "Daily Mail"ə demensiyanın qarşısının alınması və müalicəsi üzrə Lancet Komissiyasının mütəxəssisləri məlumat verib. 2020-ci ildə nəşr olunan araşdırma idrak qabiliyyətinin azalması riskinə təsir edən 12 dəyişdirilə bilən amili müəyyən edib.**

Bunlara qan təzyiqi, piylənmə, istehlak edilən spirt miqdarı, siqaret çəkmək, fiziki hərəkətsizlik, diabet, travmatik beyin zədəsi tarixi, sosial izolyasiya, eşitmə itkisi, depressiya, beyin fəaliyyətinin səviyyəsi və havanın çirklənməsi daxildir.

Alimlər hesab edirlər ki, bu amilləri aradan qaldıran sağlam vərdişlər (məsələn, yaxşı yemək və qan şəkərinə nəzarət) demensiyanın inkişaf riskini 40% azalda bilər.

Alimlərin 2024-cü ildə təqdim etdiyi yeni hesabatda iki əlavə faktor müəyyən edilib. Tədqiqata görə, yaddaş problemlərinin yaranma ehtimalı müalicə olunmayan göz xəstəlikləri və qanda aşağı sıxlıqlı lipoprotein xolesterinin (pis LDL xolesterin) səviyyəsinin artması ilə artır.

Ekspert komissiyasının üzvləri qeyd ediblər ki, hər cəhətdən əlverişli həyat tərzi demensiyanın inkişaf riskini 50% azalda bilər. Bununla belə, ətraf mühitin bəzi xüsusiyyətləri, məsələn, ekoloji problemlər öz sağlamlığını qorumaq istəyən tək bir şəxsin nəzarətindən kənarda qalır. Belə problemlərin həlli üçün dövlət tənzimlənməsi tələb olunur.

## İnsan sağlamlığına yeni təhlükə



**Mikroplastik ağcaqanadların bağırsaqlarına təsir edərək onların immunitetini zəiflədir. Bu isə həşəratların malyariya, denqe qızdırması kimi xəstəliklərə yoluxmasının artmasına gətirə və beləliklə insanlara daha çox ötürməsinə səbəb ola bilər.**

Oxu.Az-ın TASS-a istinadla verdiyi məlumata görə, bu barədə rusiyalı alimlər xəbərdarlıq ediblər.

Mütəxəssislər, ümumiyyətlə, ağcaqanadların inkişafının bütün mərhələlərində yaşama qabiliyyətinin kifayət qədər yüksək olduğunu vurğulayıblar.

"Bununla belə, biz gördük ki, mikroplastikin aşağı konsentrasiyaları ağcaqanad sürfələrində immunitetin zəifləməsinə səbəb olur", - deyə elm adamları vurğulayıblar.

Alimlər həşəratların immunitetinin azalmasının mümkün səbəbi kimi onların bağırsaqlarının mikroplastik hissəcikləri ilə tıxanması ilə bağlayırlar.

"Bu, bağırsaq toxumalarının mikro zədələnməsi, həmçinin mikrobiotanın strukturu və tərkibində dəyişikliklərlə müşayiət oluna bilər. Bu dəyişikliklər ağcaqanad sürfələrinin insektisidlərə və patogenlərə qarşı davamlılığına əhəmiyyətli dərəcədə təsir göstərir. Bir tərəfdən, bu, ağcaqanadların zərərli preparatlara qarşı daha həssas olmasına səbəb olacaq, digər tərəfdən isə həşəratların sonradan insana ötürülə biləcək müxtəlif parazitar və yoluxucu xəstəliklərə yoluxmasının artmasına gətirib çıxaracaq", - deyə onlar xəbərdarlıq ediblər.

## "Facebook" Texas ştatına 1.4 milyard dollar ödəyəcək

**ABŞ-ın "Meta" şirkəti Texas ştatına 1.4 milyard dollar cərimə ödəməyə razılaşıb. Yerli məmurlar hələ 2022-ci ildə korporasiyaya qarşı iddia qaldıraraq, Facebook sosial şəbəkəsini şəxsi məlumatların mühafizəsi haqqında müqavilələni pozmaqda ittiham ediblər.**

Populyar sosial şəbəkə 2011-ci ildən bəri Texas sakinlərinin milyonlarla biometrik məlumatlarını onların razılığı olmadan qanunsuz olaraq toplayır.

Məhkəmənin nəticəsi olaraq, "Meta" biometrik identifikatorların toplanması və ya istifadəsi ilə bağlı Texas qanununun pozulması səbəbindən təxminən 1.4 milyard dollar ödəyəcək. Vəsaitlər növbəti beş il ərzində dövlətin hesabına daxil olacaq.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.